RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 40 (10060) 3 mart 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Ölkəmizin ekoloji durumunun yaxşılaşdırılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir

### Prezident İlham Əliyev Bakıda məişət tullantıları daşıyan texnikalarla tanış olub



Martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzinin həyətində məişət tullantıları daşıyan texnikalarla tanış olub.

2

## İlham Əliyev Məsud Pezeşkiana başsağlığı verib

### İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məsud Pezeşkiana

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı xəbəri bizi dərindən kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və dost İran xalqına dərin hüznlə başsağlığımızı ifadə edir, səbir və dözüm arzulayırıq.

Ayətullah Seyid Əli Xamenei uzun illər ərzində İran dövlətinin və cəmiyyətinin həyatında mühüm rol oynamış, ölkəsinin siyasi və dini həyatında xüsusi yer tutmuş şəxsiyyət olmuşdur. Onun vəfatı İran üçün böyük itkidir.

Bu çətin gündə dost və qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayırıq.

Allah rəhmət eləsin!

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2026-cı il*

## Azərbaycanın sabitlik və sülh modeli



Azərbaycanın təhlükəsizlik modelinin ən parlaq səhifəsi 2020-ci ildə qazanılan tarixi Zəfərdir. Uzun illər torpaqları işğal altında qalan, lakin buna rəğmən hər zaman sülh və danışıqlar yoluna üstünlük verən dövlətimiz nəticədə öz gücü ilə ədaləti bərpa etdi. Qarabağ Zəfəri dünyaya bir mesaj idi ki, dayanıqlı sülh yalnız ədalət üzərində qurula bilər. İşğala son qoyulması təkcə ölkəmizin ərazi bütövlüyünü bərpa etmədi, həm də Cənubi Qafqazda onilliklər boyu davam edən münaqişə ocağını söndürdü. 2020-ci ildən sonra bölgədə yaranan yeni reallıqlar Azərbaycanın yürütdüyü uzaqgörən siyasətin nəticəsidir. Müharibəyə son qoymaqla regionda əməkdaşlıq üçün yeni imkanlar yaradan Azərbaycan müstəqilliyinin ilk günlərindən etibarən beynəlxalq əməkdaşlığın gücləndirilməsinin tərəfdarı, qlobal problemlərin həllində aktiv tərəfdaş kimi çıxış edib.

Təsadüfi deyil ki, Azərbaycan beynəlxalq terrorçuluğa qarşı mübarizədə ön sıralarda yer alır. Ölkəmiz qlobal təhlükəsizlik koalisiyalarının fəal üzvü olmaqla, həm də regionda radikalizmin qarşısının alınmasında mühüm rol oynayır.

6



## Düşmənlərimiz İLHAM ƏLİYEVƏ nələri bağışlaya bilmirlər?!

Düşmənlərimiz İlham Əliyevə onun uğurlarını heç vəchlə bağışlaya bilmirlər.

- Əslində, bu uğurlar doğma Azərbaycanımızın uğurlarıdır!
- Əslində, bu uğurlar Azərbaycanı inkişaf etdirir, yüksəldir!
- Əslində, bu uğurlar düşmənlərimizin Azərbaycana qarşı düşmənçilik niyyət və hərəkətlərini heçə çıxarır!

Azərbaycanın zəngin karbohidrogen ehtiyatları, digər yeraltı və yerüstü sərvətləri, əlverişli geosiyasi mövqeyi hər zaman çoxlarının ağzını sulandırıb.

Uzun illərboyu ondan bəhrələnənlər də olub.

Hətta bu sərvətlərə sahibliklərini əbədiliyə çevirməkdən ötrü "Qarabağ problemi" adlı bir məkrli oyun da düşünüb qurublar, öz torpaqlarımızda, öz içimizdə bizə düşmən olanları zorla yerləşdirərək bizə qarşı təzyiq alətinə çeviriblər.

Müstəqillik niyyətinə düşdükdə, öz sərvətlərimizə özümüz sahiblik etmək istədikdə münaqişə və müharibə ocağı qalayıblar, alətə çevirdikləri milləti qabağa verərək torpaqlarımızı işğal ediblər, daxilimizdə separatçı qüvvələr yetişdiriblər, onları silahlandırıblar, hərbi cəhətdən bütün yardımları göstərərək torpaqlarımızı işğal ediblər.

İçimizdə "5-ci kolon" adlı satqınlar dəstəsi də təşkil ediblər, onların vasitəsilə daxili sabitliyimizi pozaraq dəfələrlə dövlət çevrilişinə, hakimiyyət dəyişikliyinə cəhdlər ediblər.

İki əsr ərzində ən murdar üsul və vasitələrlə sərvətlərimizi mənimsəyib, torpaqlarımızı əlimizdən alaraq ermənilərə bağışlayıb, özümüzü isə dədə-baba ərazilərimizdən deportasiya edərək maddi və mənəvi abidələrimizi məhv ediblər.

Hər şeyin başlanğıcı olduğu kimi, sonu da olur.

Xalqlar həbsxanasına çevrilən qırmızı imperiya çürüyərək dağıldıqdan sonra uzun illər Moskvanın itaətində olan respublikalar dövlət müstəqilliyi qazanmağa başladılar.

Lakin Kreml öz müstəmləkə siyasətini başqa formada davam etdirmək fikrindən daşınmırdı.

Gah MDB yaradırdı, gah KTMT, gah da Avrasiya İqtisadi Birliyi...

Yenə də özünü "böyük qardaş" kimi aparır, yenə də imperiya ədası ilə davranırdı...

Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdaraq müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirdikdən sonra "Əsrin müqaviləsi", BTC kimi nəhəng transmilli layihələri gerçəkləşdirərək ölkənin karbohidrogen ehtiyatlarına sahibliyini təmin etdikdən, müstəqil Azərbaycanın davamlı və sürətli inkişafını daim təmin edəcək siyasi kurs hazırladıqdan sonra "köhnə münasibətlər" heç nəyə yaramadı.

5

## Azərbaycan-Rusiya münasibətlərinin gündəliyi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb

### Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Hökuməti Sədrinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul edib.

2

## Rəqəmsal dünyanın kibertəhlükə bəlası

### Azərbaycan dövləti bu bəladan qorunmaq üçün operativ tədbirlər görür



Bu gün rəqəmsal mühitdə savadlı insanlar tətbiqdən istifadə etməyi bacarır, manipulyasiyalara qarşı ayıq olur, dezinformasiyanı tanıyır və məlumatı şüurlu şəkildə dəyərləndirirlər. Rəqəmsal dünya bizə sürət və rahatlıq qazandırmaqla yanaşı, bizdən seçim və məsuliyyət tələb edir. Məhz buna görə də rəqəmsal savadlılıq müasir insanın ən vacib bacarıqlarından hesab olunur.

Kibermaarifləndirmə isə insanları internet təhlükələrindən xəbərdar etmək, onlara qorunma yollarını öyrətmək prosesidir. Bu, yalnız texniki biliklərin mənimsənilməsi deyil, həm də internetdə rast gəlinən risklərin fərqinə varmaq və onlarca davranış strategiyasını formalaşdırır. Uşaqlar və gənclər, hətta böyüklər də düzgün təhsil və maarifləndirmə olmayanda bu təhlükələrə qarşı həssas olurlar. Məsələn, yalançı və manipulyativ mesajlar, zərərli proqramlar və ya sosial şəbəkələrdəki saxta, uydurma informasiyalar onların şəxsi məlumatlarını, maliyyə və ya hətta psixoloji təhlükəsizliyini riskə ata bilər.

Kibermaarifləndirmə insanların onlayn təhlükələrə qarşı hiss və duyğularını, eləcə də davranışlarını gücləndirir. Şifrə seçimi, ikifaktorlu autentifikasiya (onlayn hesabınıza daxil olarkən təhlükəsizliyi artırmaq üçün iki fərqli təsdiq mərhələsindən keçmək), şəxsi məlumatların qorunması, şübhəli linklərdən uzaq durmaq və sosial şəbəkələrdə etibarlı ünsiyyət kimi bacarıqlar kibermaarifləndirmənin əsas komponentlərindəndir. Bundan əlavə, kibermaarifləndirmə cəmiyyətdə etibarlı rəqəmsal mədəniyyətin yaranmasına da xidmət edir. İnsanlar onlayn davranışlarının nəticələrini başa düşəndə özlərini və digər istifadəçiləri də qorumağa başlayırlar. Bu, xüsusilə uşaqlar üçün həyati əhəmiyyət daşıyır. Uşaqların təhlükəsiz böyüməsi, zərərli vərdişlərdən və yanlış məlumatlardan qorunması üçün kibermaarifləndirmənin mühüm əhəmiyyəti var.

7

## Tarix yazılıb, nöqtə qoyulub, geri dönüş yoxdur

### Sülh gündəliyinə qarşı pozucu fəaliyyətlərin sonu rüsvayçı fiaskodur

Ölkəmizin ərazi bütövlüyü və suveren hüquqlarını hədəf alan təxribatçı meyillər son günlərdə "neytral" statuslu İsveçrənin siyasi dairələrində də adi praktikaya çevrilməkdədir. Özünü "beynəlxalq hüququn keşikçisi" kimi dünyaya təqdim edən bir dövlətin qanunverici orqanında Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxışların edilməsi ilk növbədə İsveçrənin özünün elan etdiyi prinsiplərə xəyanətdir. Bəzi isveçrəli parlamentarilərin rəsmi qondarma terminlər üzərindən manipulyasiya aparması və "Qarabağ mövzusu"nu süni şəkildə açıq saxlamaq cəhdləri bölgədəki kövrək sülh prosesini baltalamaqdan başqa bir şey deyil. Xüsusilə Erik fon Tobel kimi qərəzli fiqurların İrəvana səfər edərək revanşist və separatçı tör-töküntülərlə görüşməsi xoş olmayan məqsədyönlü niyyətdən xəbər verir.

Bu canfəşanlıq Ermənistandakı revanşist qüvvələrdə "beynəlxalq dəstək" illüziyası yaradaraq onları yeni münaqişələrə təhrik edir. Dünyaya "obyektivlik" dərsi keçməyə çalışan bir ölkənin parlamentində Azərbaycan əleyhinə qurulan iftira kampaniyası ikili standartların ən rəzil formasıdır. "İnsan haqları" və "demokratiya" şüarları altında maskalanaraq etnik və dini təəssübkeşlik nümayiş etdirmək, əslində,



Avropanın təməl dəyərlərindən daxildən aşınması deməkdir.

6

# Ölkəmizin ekoloji durumunun yaxşılaşdırılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir

## Prezident İlham Əliyev Bakıda məişət tullantıları daşıyan texnikalarla tanış olub



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi ilə Gəncə avtomobil zavodunda istehsal edilən bu texnikalar ölkəmizin müxtəlif şəhər və rayonlarına göndəriləcək.

Ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov və "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyev layihə barədə dövlətimizin başçısına məlumat veriblər.

Bildirilib ki, ümumilikdə layihə çərçivəsində hər birinin tutumu 22 kubmetr olan 70 kommunal texnika istehsal edilib. Kommunal texnikanın iki toplantı meydançasından - Bakı şəhərində Ekspo Mərkəzinin qarşısından və Gəncə şəhərində avtomobil zavodunun həyətindən Azərbaycanın 58 şəhər və rayonuna göndərilməsi nəzərdə tutulur.



Azərbaycanda paytaxt Bakı ilə yanaşı, bölgələrimizin inkişafı, orada müasir sosial infrastrukturun, o cümlədən parkların, yaşıllıq və meşə zolaqlarının yaradılması və bununla da ümumilikdə ölkəmizin ekoloji durumunun yaxşılaşdırılmasına yönəlmiş layihələr ardıcıl şəkildə davam etdirilir. Bu baxımdan məişət tullantıları daşıyan texnikaların şəhər və rayonlarımıza göndərilməsi bir neçə vacib amili özündə birləşdirir. Belə ki, bu, ilk növbədə regionlarda kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi və sanitariya-gigiyena vəziyyətinin yaxşılaşdırılmasına töhfə verəcək. Beləliklə, müasir yeni texnikalar məişət tullantılarının vaxtında və səmərəli daşınmasını, yaşayış məntəqələrində təmizlik işlərinin daha keyfiyyətli aparılmasını təmin edəcək. Bununla yanaşı, layihə ətraf mühitin mühafizəsi baxımından da mühüm rol oynayır. Layihənin daha bir mühüm məqamı odur ki, bu texnikalar yerli istehsaldır. Ümumilikdə, indiyədək Gəncə avtomobil zavodunda çox sayda traktor, kombayn, digər kənd təsərrüfatı texnikası, minik və yük avtomobili və sair texnika istehsal olunub.

Qeyd edək ki, Gəncə Avtomobil Zavodunun əsası 1986-cı ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub. 2004-cü ildə Prezident İlham Əliyevin tapşırığı ilə bu istehsal müəssisəsi fəaliyyətə başlayıb. Hazırda zavodda 500-ə yaxın işçi çalışır.

# Azərbaycan-Rusiya münasibətlərinin gündəliyi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Hökuməti Sədrinin müavinini qəbul edib



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, görüş əsnasında Rusiya tərəfi regionda mürəkkəb və gərgin şərait fonunda Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində operativ köməyə görə, Azərbaycan rəhbərliyinə səmimi təşəkkürünü bildirib.

Azərbaycan-Rusiya münasibətlərinin gündəliyi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Söhbət zamanı qeyd edilib ki, Azərbaycan və Rusiya liderlərinin 2025-ci il oktyabrın 9-da Düşənbədə keçirilən görüşündə əldə etdikləri razılaşmalara uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də AZAL təyyarəsinin qəzaya uğraması nəticəsində yaranan problemlərin həlli üzrə yaxın vaxtlarda kompleks praktik addımlar atacaqlar.

Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı iqtisadi-ticari, investisiya, sənaye və nəqliyyat-logistika əməkdaşlığının gələcəkdə daha da inkişaf etdirilməsinə dair ortaq niyyətə diqqət yetirilib.

Görüşdə regionda nəqliyyat əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə işləri davam etdirmək üçün ortaq niyyət təsdiqlənib.

Söhbət əsnasında bir sıra humanitar məsələlər də müzakirə edilib.

Görüş Azərbaycan-Rusiya dövlətlərarası dialoquna xas olan ənənəvi dostluq və konstruktiv şəraitdə keçib.

# "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4 (Cild I); 2024, № 11, maddə 1182, № 12 (II kitab), maddələr 1332, 1348; 2025, № 1, maddə 16, № 3, maddə 218, № 8, maddə 743, № 11, maddə 1008; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 16-4.4-1-ci maddəsində "2026-cı" sözləri "2027-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2026-cı il*

# Gəncə şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işlərinin layihə-smeta sənədlərinin hazırlanması və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ilkin olaraq 1,6 milyon (bir milyon altı yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2026-cı il*

# "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 15-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584 (Cild I); 2025, № 1, maddə 6, № 8, maddə 739) aşağıdakı məzmunda 11.16-1-ci maddə əlavə edilsin:

"11.16-1. Bu Qanunla müəyyən edilmiş müddətdə dövlət büdcəsinin və icmal büdcənin layihələrinin və icmal büdcənin göstəricilərinin tərtibi üçün zəruri olan məlumatların dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və dövlət büdcəsinin göstəricilərinin, gəlir və xərclər bölgüsünün və digər məlumatların həmin orqan (qurum) tərəfindən dövlət büdcəsindən maliyyələşən təşkilatlara təqdim edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə həyata keçirilir.".

**Maddə 2.** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 605 (Cild I); 2024, № 1, maddələr 2, 11, № 7, maddə 764; 2025, № 4 (I kitab), maddələr 312, 318) 4-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 4-1. **Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi";**

2.2. 4-1.1-ci maddədən "e-mühasibat" sözləri çıxarılsın və həmin maddəyə "sistemi" sözündən sonra "mühasibat uçotu sahəsində" sözləri əlavə edilsin;

2.3. 4-1.1.1-ci maddəyə "maliyyə hesabatlarının" sözlərindən sonra ", o cümlədən birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının" sözləri əlavə edilsin;

2.4. 4-1.1.2-ci maddədən ", mühasibat uçotunun aparılmasını təmin edən proqram təminatlarının" sözləri çıxarılsın və həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

2.5. aşağıdakı məzmunda 4-1.1.3-cü maddə əlavə edilsin:

"4-1.1.3. mühasibat uçotu subyektləri tərəfindən mühasibat uçotunun elektron qaydada aparılmasını və maliyyə hesabatlarının, o cümlədən birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının tərtib və təqdim edilməsini.".

**Maddə 3.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1135 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü maddə üzrə:

3.1.1. 3.2-ci maddədə "Qanun" sözü "Qanunun 3.12-ci maddəsi nəzərə alınmaqla, bu Qanun" sözləri ilə əvəz edilsin;

3.1.2. 3.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"3.9. Bu Qanunun 3.8-ci maddəsində göstərilən halda müvafiq satınalmalarla bağlı müqavilə satınalan təşkilat tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra - informasiya sistemi) vasitəsilə imzalandıqdan sonra bu Qanunun 38.11-ci maddəsinə uyğun olaraq müvafiq məlumatlar həmin informasiya sistemi tərəfindən avtomatik şəkildə dərhal portala ötürülür və satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində müvafiq məlumatı portalda dərc edir.";

3.1.3. aşağıdakı məzmunda 3.12-ci maddə əlavə edilsin:

"3.12. Bu Qanunun 15.3-cü maddəsində göstərilən satınalmalar, habelə qalib təchizatçının qeyri-rezident olduğu hallar istisna olmaqla, bu Qanunun şamil edildiyi satınalmalara dair müqavilələr, həmçinin bu Qanunun 3.2.1-ci, 3.2.4-cü, 3.2.8-ci, 3.4-cü və 3.8-ci maddələrində nəzərdə tutulan mal, iş və xidmətlərin satın alınması üzrə müqavilələrin bağlanılması və göndərilməsi informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.";

3.2. 15-ci maddə üzrə:

3.2.1. 15.1-ci maddədə "15.3-cü maddəsinin" sözləri "3.12-ci və 15.3-cü maddələrinin" sözləri ilə əvəz edilsin;

3.2.2. 15.4-cü maddədə ", bildirişlərin və müqavilələrin" sözləri "və bildirişlərin" sözləri ilə əvəz edilsin;

3.3. 25.1.2-ci maddəyə "yeri," sözündən sonra "proqnozlaşdırılan icra" sözləri əlavə edilsin;

3.4. 30.2.2-ci maddədə "müəyyən olunmuş" sözləri "bu Qanunla müəyyən olunmuş qaydada və" sözləri ilə əvəz edilsin;

3.5. 34.7-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Satınalmanın nəticələri barədə satınalma komissiyasının yekun protokolunun təsdiq edilməsi barədə nəzarət orqanının qərarı (bu maddənin üçüncü cümləsinə uyğun olaraq nəzarət orqanının bununla bağlı qərarı olmadıqda təsdiq edilmiş hesab olunan yekun protokollar), qalib təchizatçının təklifi (iş həcmləri cədvəli və qiymət təklifi) dərhal informasiya sisteminə ötürülür.";

3.6. 38-ci maddə üzrə:

3.6.1. 38.1-ci maddədə "tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə" sözləri "bu Qanunun 3.12-ci maddəsi nəzərə alınmaqla informasiya sistemi vasitəsilə tərtib edib təchizatçıya portal vasitəsilə təqdim olunan aksept bildirişi ilə eyni vaxtda" sözləri ilə əvəz edilsin;

3.6.2. 38.2-ci maddə üzrə:

3.6.2.1. birinci cümləyə "müqaviləsini" sözündən sonra "informasiya sistemində gücləndirilmiş elektron imza ilə" sözləri əlavə edilsin;

3.6.2.2. ikinci cümləyə "olmayaraq" sözündən sonra "informasiya sistemində gücləndirilmiş elektron imza ilə" sözləri əlavə edilsin;

3.6.3. 38.8-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Satınalma predmetinin həcmi (miqdarı) dəyişdirildiyi təqdirdə satınalan təşkilat bu barədə məlumatı informasiya sisteminə dərhal ötürür.";

3.6.4. 38.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"38.11. Satınalma müqaviləsi qüvvəyə mindikdən sonra satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə məlumatların portalda yerləşdirilməsi üçün həmin məlumatlar informasiya sistemi tərəfindən dərhal portala ötürülür və satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində həmin məlumatları portalda dərc edir.";

3.7. 42.1-ci maddənin ikinci cümləsinə "baxılır" sözündən sonra "və razılıq əldə edildiyi halda bu dəyişikliklər bu Qanunun 3.12-ci maddəsinin tələbləri nəzərə alınmaqla informasiya sistemi vasitəsilə həyata keçirilir" sözləri əlavə edilsin;

3.8. 44.5-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Nəzarət orqanı tərəfindən bu maddəyə əsasən verilən razılıqlar informasiya sisteminə dərhal ötürülür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

# "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326 (Cild I); 2025, № 6, maddələr 541, 559, № 11, maddə 1039) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"nin 8.55-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"8.55. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1058 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunları haqqında Əsasnamə"nin 8.20-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"8.20. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;".

3. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli 73 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 218 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti haqqında Əsasnamə"nin 8.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"8.4. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;".

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1520 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.16-3-cü yarımbənd əlavə edilsin:

"3.1.16-3. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruqların ərazilərində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, onların yerləşdiyi ərazidə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə icazə vermək;".

5. "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddə 662; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.2.19-cu yarımbəndində "və digər təsərrüfat işləri görülərkən" sözləri ", təsərrüfat və digər işlər görülərkən, o cümlədən minatəmizləmə fəaliyyəti həyata keçirilərkən" sözləri ilə, "və digər təsərrüfat işlərinin" sözləri

", təsərrüfat və digər işlərin, o cümlədən minatəmizləmə fəaliyyətinin" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.40-cı yarımbəndində "və digər təsərrüfat işləri görülərkən" sözləri ", təsərrüfat və digər işlər görülərkən, o cümlədən minatəmizləmə fəaliyyəti həyata keçirilərkən" sözləri ilə, "və digər təsərrüfat işlərinin" sözləri", təsərrüfat və digər işlərin, o cümlədən minatəmizləmə fəaliyyətinin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938, № 12 (II kitab), maddə 1373; 2025, № 7, maddə 659, № 10, maddə 901; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.33-2-ci yarım bənd əlavə edilsin:

"3.0.33-2. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruqların ərazilərində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, onların yerləşdiyi ərazidə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə icazə vermək;".

7. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1248 (Cild I); 2025, № 6, maddə 541) 7.1-ci bəndində "minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin" sözləri "minatəmizləmə fəaliyyəti üzrə işlərin" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 yanvar tarixli 1251 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 21 (Cild I) 3.1-ci bəndindən "habelə" (birinci halda) və", zərərsizləşdirilməsi" sözləri çıxarılsın və həmin bənddə "digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "ərazilərin və digər təhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan"sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 1276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 118 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddən "habelə" (birinci halda) və ", zərərsizləşdirilməsi" sözləri çıxarılsın və həmin bənddə "digər ərazilərin, kimyəvi silah istisna olmaqla, minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan (bundan sonra - minalardan və hərbi sursatdan)" sözləri "ərazilərin və digər təhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

9.2. 2.1.5-ci yarımbəndə "ərazilərin" sözündən sonra "və digər təhlükəli ərazilərin" sözləri əlavə olunsun və həmin yarımbənddə "partlamamış hərbi sursatdan (kimyəvi silah istisna olmaqla)" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

9.3. 3.1-ci bənd üzrə:

9.3.1. aşağıdakı məzmunda 3.1.1-1-ci yarımbənd əlavə edilsin:

"3.1.1-1. minatəmizləmə fəaliyyətinə dair tələblərə və mina əleyhinə beynəlxalq standartlara uyğun olaraq standart əməliyyat prosedurlarını müəyyən etmək;";

9.3.2. 3.1.4-cü yarımbəndə "ərazilərin" sözündən sonra "və digər təhlükəli ərazilərin" sözləri əlavə olunsun və həmin yarımbənddə "partlamamış hərbi sursatdan (kimyəvi silah istisna olmaqla)" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə, ", daşınmasını və zərərsizləşdirilməsini" sözləri "və daşınmasını" sözləri ilə əvəz edilsin;

9.3.3. 3.1.5-ci yarımbənddə "elektron məlumat bazası yaratmaq" sözləri "informasiya sisteminin aparılmasını təmin etmək" sözləri ilə əvəz edilsin;

9.3.4. 3.1.6-cı yarımbənddə "minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış" sözləri "təhlükəli" sözü ilə, "hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə, "elektron məlumat bazasına" sözləri "informasiya sisteminə" sözləri ilə əvəz edilsin;

9.3.5. 3.1.8-ci yarımbənddə "minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalması ehtimal edilən" sözləri "təhlükəli" sözü ilə əvəz edilsin;

9.3.6. 3.1.9-cu yarımbənddə "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

9.3.7. 3.1.10-cu yarımbənddə "hərbi sursatın (kimyəvi silah istisna olmaqla)" sözləri "digər partlayıcı sursatların" sözləri ilə əvəz edilsin;

9.3.8. 3.1.11-ci yarımbənddə "hərbi sursatdan (kimyəvi silah istisna olmaqla)" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

9.3.9. 3.1.12-ci yarımbənddə "partlamamış hərbi sursatın (kimyəvi silah istisna olmaqla)" sözləri "partlayıcı sursatların" sözləri ilə əvəz edilsin;

9.3.10. aşağıdakı məzmunda 3.1.12-1-ci yarımbənd əlavə edilsin:

"3.1.12-1. minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi üçün qiymətləndirməni aparmaq;";

9.3.11. 3.1.13-cü yarımbənddə "aparmaq" sözü "və təhlükəli ərazilərin təmizləmə keyfiyyətinin qiymətləndirilməsini həyata keçirmək" sözləri ilə əvəz edilsin;

9.3.12. aşağıdakı məzmunda 3.1.13-1-ci yarımbənd əlavə edilsin:

"3.1.13-1. keyfiyyətə nəzarət zamanı icraçı tərəfindən minatəmizləmə fəaliyyətinə dair tələblərin və standart əməliyyat prosedurlarının pozulması halı aşkar edildikdə icraçıdan pozuntunun aradan qaldırılmasını tələb etmək, buna riayət olunmadıqda icraçının minatəmizləmə fəaliyyətini dayandırmaq;";

9.3.13. 3.1.14-cü yarımbənddə "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

9.3.14.3.1.15-ci yarımbənddə "akkreditasiyadan keçirmək" sözləri "qiymətləndirmək" sözü ilə əvəz edilsin;

9.3.15. 3.1.16-cı yarımbənddə "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

9.3.16. 3.1.18-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.18. əhali arasında minaların və digər partlayıcı sursatların təhlükəsinə dair maarifləndirici tədbirlər həyata keçirmək, o cümlədən partlayıcı sursatların təhlükəsi, bununla əlaqədar dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin vəzifələri, təhlükəli ərazilər və həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə bağlı maarifləndirici materialların hazırlanmasını və yayılmasını təmin etmək;";

9.3.17. 3.1.19-cu yarımbəndə "etmək" sözündən sonra ", minatəmizləyənlərə qanunla müəyyən edilmiş qaydada təlimlər keçirmək və təlimlərin nəticəsində qiymətləndirmə apararaq sertifikat vermək" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 fevral tarixli 1280 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 122 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"nin 3.1.23-cü yarımbəndində "minatəmizləmə və minaların zərərsizləşdirilməsi işlərinin" sözləri "minatəmizləmə fəaliyyəti üzrə işlərin" sözləri ilə əvəz edilsin.

11. "Ağdam Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 28 may tarixli 1347 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 454 (Cild I) 6-cı hissəsində ", partlamamış hərbi sursatdan, tərkibində partlayıcı maddə olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "və digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28, № 3, maddə 228, № 8, maddə 777) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nin 3.1.12-ci və 3.1.13-cü yarımbəndlərinə "təmir" sözündən sonra ", minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin.

13. "Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 sentyabr tarixli 1441 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 981 (Cild I); 2025, № 2, maddə 108) aşağıdakı dəyişikliklər edilsin:

13.1. preambula üzrə:

13.1.1. "habelə" sözü çıxarılsın;

13.1.2. "digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlarından" sözləri "ərazilərin və digər təhlükəli ərazilərin minalardan və digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

13.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (bundan sonra - Agentlik) təklifləri əsasında, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış ərazilərinin və digər təhlükəli ərazilərinin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi sahəsində prioritet təşkil edən təhlükəli ərazilər nəzərə alınmaqla, minatəmizləmə ilə əlaqədar fəaliyyət planını hər il dekabrın 25-dək təsdiq etsin;";

13.3. 1.6-cı bəndə "ərazilərin" sözündən əvvəl "təhlükəli" sözü əlavə olunsun və həmin bənddə "hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

13.4. 2.1-ci bəndə "ərazilərdə" sözündən əvvəl "təhlükəli" sözü əlavə edilsin.

14. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli 1453 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1097 (Cild I) 6-cı hissəsində ", partlamamış hərbi sursatdan, tərkibində partlayıcı maddə olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "və digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamında(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360; 2025, № 4 (I kitab), maddə 330) aşağıdakı dəyişikliklər edilsin:

15.1. preambulanın üçüncü abzasının ikinci cümləsində "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə:

15.2.1. 3.2-ci bəndin ikinci abzasında ", partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "və digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.2.2. "4. Hədəf göstəricilər" hissəsinin "Şəkil 1. Hədəf göstəriciləri" cədvəlinin "İNFRASTRUKTUR" sütununun birinci abzasında "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.2.3. 6.2.1-ci yarımbənd üzrə:

15.2.3.1. ikinci abzasda "hərbi sursatdan" sözləri "partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.2.3.2. üçüncü abzasda "fəaliyyətinə dair təsdiq edilmiş illik tədbirlər" sözləri "ilə əlaqədar fəaliyyət" sözləri ilə, "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə, "və zərəsizləşdirilməsi, minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış" sözləri ", təhlükəli" sözü ilə əvəz edilsin;

15.2.4. 7.1-ci bəndin ikinci abzası üzrə:

15.2.4.1. birinci cümlədə "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.2.4.2. ikinci cümlədə "partlamamış hərbi sursatdan və digər partlayıcı qalıqlardan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.3. "10. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsi üzrə:

15.3.1. 1.1-ci bənddə "partlamamış hərbi sursatdan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin;

15.3.2. 1.1.1-ci yarımbəndin "Tədbirin adı" sütununda ", partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "və digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 359-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 359-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.16-1-ci maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.16-1-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 11.16-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "Büdcə məlumatlarını idarəetmə" altsistemi nəzərdə tutulur;

1.4. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinin adında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 4-1-ci maddəsinin adında "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "e-mühasibat" altsistemi nəzərdə tutulur;

1.6. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 3.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun 3.9-cu maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "e-müqavilə" altsistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Büdcə sistemi haqqında", "Mühasibat uçotu haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 359-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767 (Cild I); 2024, №7, maddə 788; 2025, № 2, maddə 109) 2.3-2-ci bəndində "Dövlət rüsumlarının elektron idarə edilməsi (e-rüsum)" informasiya sistemi" sözləri "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "e-rüsum" altsistemi" sözləri ilə əvəz edilsin.

4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605 (Cild I); 2024, № 12 (II kitab), maddə 1363; 2025, № 1, maddə 24, №8, maddə 751, № 12 (I kitab), maddə 1155) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "11.16-cı," sözlərindən sonra "11.16-1-ci (hər iki halda)," sözləri əlavə edilsin;

4.2.2.14-cü bəndə "(ikinci və üçüncü hallarda)," sözlərindən sonra "11.16-1-ci (birinci halda)," sözləri əlavə edilsin;

4.3.aşağıdakı məzmunda 2.19-1-ci bənd əlavə edilsin:

"2.19-1. həmin Qanunun 11.16-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "Büdcə məlumatlarını idarəetmə" altsistemi nəzərdə tutulur.".

5. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 68 (Cild I); 2024, № 1, maddə 26, № 7, maddə 807; 2025, №4 (I kitab), maddə 342) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə birinci halda "maddələrində," sözündən sonra "4-1-ci maddəsinin adında," sözləri əlavə edilsin;

5.2. 2.2-3-cü bənddən "4-1.1-ci maddəsinin birinci abzasında və" sözləri çıxarılsın;

5.3. aşağıdakı məzmunda 2.2-4-cü bənd əlavə edilsin:

"2.2-4. həmin Qanunun 4-1-ci maddəsinin adında və 4-1.1-ci maddəsinin birinci abzasında "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "e-mühasibat" altsistemi nəzərdə tutulur;".

6."Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1174 (Cild I); 2025, № 7, maddə 652, № 11, maddə 1108) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.1-ci bəndə "3.7-ci," sözlərindən sonra "3.9-cu," sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 1.14-1-ci bənd əlavə edilsin:

"1.14-1. həmin Qanunun 3.9-cu maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "e-müqavilə" altsistemi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 58** **Bakı şəhəri, 25 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 276-VIIQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 523 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 21 yanvar tarixli 22 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

**"12. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi şərtləri**

12.1. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlər aşağıdakı şərtlərlə göstərilir:

12.1.1. müvafiq tibbi xidmətin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən göstərilməsi üçün zəruri tibbi avadanlıq və (və ya) müvafiq sahə üzrə işçilərinin olmaması;

12.1.2. bir büdcə ili ərzində tibbi xidmətlər göstərilən həbs edilmiş şəxslərin, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərin (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) 1500 nəfərdən çox olmaması;

12.1.3. bu Sənədin 12.1.2-ci yarımbəndi nəzərə alınmaqla, bir büdcə ili ərzində icbari tibbi sığorta fondunun vəsaiti hesabına həyata keçirilən sığorta ödənişlərinin 200 000 manatadək olması.

12.2. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla) tibbi xidmətlərin göstərilməsi zamanı Azərbaycan Respublikasının ƏdIiyyə Nazirliyi tərəfindən təhlükəsizlik tədbirləri təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş nazir Əli Əsədov BP-nin nümayəndə heyəti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 2-də BP şirkətinin Hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə BP arasında formalaşmış uzunmüddətli qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib.

BP-nin Azərbaycanda reallaşdırdığı layihələrin önəmi qeyd olunub, eyni zamanda ikitərəfli əməkdaşlığın gündəliyində duran perspektivli layihələr nəzərdən keçirilib.

# İqtisadi əməkdaşlıq üzrə Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının həmsədrləri görüşüblər

**Rusiya hökuməti nümayəndə heyətinin martın 2-də Bakıya səfəri çərçivəsində İqtisadi əməkdaşlıq üzrə Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının həmsədrləri - Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk və Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Rusiya və Azərbaycan arasında praktiki qarşılıqlı fəaliyyətin bütün aktual məsələlər kompleksini müzakirə ediblər.**



Ticarət-iqtisadi, sənaye, enerji, nəqliyyat-logistika və aqrar-sənaye əməkdaşlığının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tərəflər əmtəə dövriyyəsinin davamlı artımını məmnunluqla qeyd ediblər. Orta və uzunmüddətli perspektivə hesablanmış birgə investisiya layihələrinin həyata keçirilməsi üçün geniş imkanların olduğu vurğulanıb.

Həmsədrlər Rusiya və Azərbaycan arasında avtomobil, dəmir yolu və dəniz nəqliyyatı ilə yükdaşımaların həcminin daha da artırılması üzrə tədbirləri müzakirə ediblər. Rusiya-Azərbaycan dövlət sərhədindəki buraxılış məntəqələrinin səmərəli işi və onların gələcəkdə daha da modernləşdirilməsinin məqsədəuyğunluğu diqqətə çatdırılıb.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi məsələləri, xüsusən də onun buraxılış qabiliyyətinin artırılması və nəqliyyat-logistika infrastrukturunun təkmilləşdirilməsi ayrıca nəzərdən keçirilib.

A.Overçuk və Ş.Mustafayev cari ilin aprel ayında Azərbaycan Respublikasında İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi barədə razılığa gəliblər.

Görüş Rusiya-Azərbaycan qarşılıqlı əlaqələrinə ənənəvi olaraq xas olan konstruktiv və dostluq şəraitində keçib.

# “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 59** **Bakı şəhəri, 2 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (bundan sonra - Xidmət) vahid elektron informasiya sisteminin (bundan sonra - VEİS) formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Xidmətlə birlikdə:

3.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, VEİS-in "Hökumət buludu"na keçidinin təşkili, aparılması və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

3.2. VEİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

3.3. VEİS-də formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsə və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın, Azərbaycan Respublikasının Baş Prokurorluğuna və Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasına isə tövsiyə edilsin ki, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd edilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azəbaycanın BMT zirvəsi

## 34 il öncə qurulmuş əməkdaşlıq ölkəmizin dünya birliyinə inteqrasiyasında mühüm mərhələ oldu

**2 mart 1992-ci il Azərbaycan Respublikasının müasir tarixində xüsusi yer tutur. Məhz bu tarixdə ölkəmiz dünyanın ən böyük siyasi qurumu olan Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv qəbul olunaraq beynəlxalq münasibətlər sistemində tamhüquqlu yerini aldı. Bu hadisə Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq səviyyədə tanınmasının və dünya birliyinə inteqrasiyasının mühüm mərhələsi oldu.**



1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycan qısa müddət ərzində beynəlxalq təşkilatlara üzvlük istiqamətində ardıcıl addımlar atdı. 1992-ci il martın 2-də BMT Baş Assambleyasının qərarı ilə Azərbaycan təşkilatın 181-ci üzvü oldu. Həmin gün Azərbaycanın üçrəngli Dövlət bayrağı BMT-nin Nyu Yorkdakı mənzil-qərargahı önündə ucaldıldı.

### Beynəlxalq hüquqi təminat və siyasi tribuna

BMT-yə üzvlük Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün beynəlxalq hüquq çərçivəsində tanınmasına mühüm töhfə verdi. Xüsusilə 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü şəraitində BMT platforması ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb etdi.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 822, 853, 874 və 884 saylı qətnamələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyərək işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Bu sənədlər beynəlxalq hüququn Azərbaycanın mövqeyini dəstəklədiyini bir daha göstərdi. Lakin həmin sənədlər uzun müddət kağız üzərində qalsa da, sonunda Azərbaycan öz gücü hesabına 30 il işğal altında qalan torpaqlarını düşməndən təmizlədi. BMT-nin məlum qətnamələri icra olundu.

### Fəal və məsuliyyətli üzv

Azərbaycan BMT çərçivəsində müxtəlif istiqamətlərdə fəal iştirak edir. Ölkəmiz davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi, humanitar təşəbbüslər, iqlim dəyişiklikləri ilə mübarizə və qlobal təhlükəsizlik məsələlərində aktiv mövqe nümayiş etdirir.

2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi dövlətimizin beynəlxalq nüfuzunun artmasının mühüm göstəricisi oldu. Həmin dövrdə Azərbaycan sülhün, təhlükəsizliyin və beynəlxalq hüququn qorunmasına yönəlmiş təşəbbüslərlə çıxış etdi.

Beləliklə, 2 mart tarixi Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və beynəlxalq mövqeyinin güclənməsi baxımından mühüm simvolik məna daşıyır. Bu gün ölkəmiz qlobal proseslərin fəal iştirakçısı, beynəlxalq hüququn prinsiplərinə sadiq və dünya birliyi ilə sıx əməkdaşlıq edən müstəqil dövlətdir.

2 mart - Azərbaycanın dünya ailəsinə qoşulduğu və beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutduğu gündür.

### BMT-də islahatlar zamanın tələbidir

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında BMT-də islahatların aparılmasının vacibliyini vurğulayıb. Dövlətimizin başçısının fikrincə, BMT-nin daha effektiv və ədalətli şəkildə fəaliyyət göstərməsi üçün struktur dəyişiklikləri və qərar qəbuletmə proseslərinin təkmilləşdirilməsi zəruridir. Bu islahatlar, xüsusilə BMT-nin Təhlükəsizlik Şurasının strukturu ilə bağlı məsələlərdə önə çıxır.

Cənab İlham Əliyev böyük dövlətlərin veto hüququnu əlində saxlaması səbəbindən, bu qurumun qərarlarının daha ədalətli və bərabərhüquqlu olması üçün islahatların vacib olduğunu vurğulayır. Eyni zamanda BMT-nin inkişaf etməkdə olan ölkələrin səsi ilə daha çox eşidilməsi və onların maraqlarını daha yaxşı əks etdirməsi məqsədilə bu islahatlar həyata keçirilməlidir. Bu islahatların həyata keçirilməsi nə qədər çətin olsa da, qlobal məsələlərə cavab verməkdə BMT-nin rolunu gücləndirə bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Yaxın Şərqdə artan gərginlik Azərbaycan və İordaniya XİN-lərinin telefon danışığının əsas mövzusu olub

**Martın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər naziri Ayman Əl-Səfadi arasında telefon danışığı aparılıb.**




Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Yaxın Şərq regionunda mövcud hərbi-siyasi vəziyyət və artan gərginlik müzakirə olunub.

Tərəflər regional təhlükəsizlik mühitinin daha da pisləşməsinin yolverilməz olduğunu qeyd edərək, mövcud fikir ayrılıqlarının beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik vasitələrlə aradan qaldırılmasının vacibliyini vurğulayıblar.

Nazirlər mülki əhalinin təhlükəsizliyinin təmin olunmasının və humanitar vəziyyətin ağırlaşmasının qarşısının alınmasının prioritet əhəmiyyət daşıdığını bildirib, regionda sabitliyin və təhlükəsizliyin bərqərar olunması istiqamətində beynəlxalq səylərin gücləndirilməsinin zəruriliyini diqqətə çatdırıblar.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici işlər naziri qazaxıstanlı həmkarı ilə telefonla danışıb

**Martın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev arasında telefon danışığı aparılıb.**




Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı regionda hərbi eskalasiya və artan gərginlik müzakirə olunub.

Nazirlər son hərbi eskalasiyadan dərin narahatlıqlarını ifadə edib və vəziyyətin daha da kəskinləşməsinin regional təhlükəsizlik və sabitliyə ciddi təhdid yaratdığını vurğulayıblar.

Tərəflər iki ölkənin bölgədə yerləşən diplomatik missiyalarındakı konsulluq bölmələri arasında əməkdaşlığın gücləndirilməsinin, vətəndaşlarımıza göstərilən dəstək istiqamətində əlaqələndirilmiş işin təşkilinin faydalı olacağını bildiriblər.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ombudsman Aparatında "Susmayan həqiqətlər" adlı sərgi açılıb

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) təşəbbüsü ilə Ombudsman Aparatında 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Susmayan həqiqətlər" mövzusunda sərginin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Ombudsman Səbinə Əliyeva çıxış edərək bildirib ki, "Susmayan həqiqətlər" sərgisi xalqımızın tarixində ən faciəli səhifələrdən biri olan, azərbaycanlılara qarşı törədilmiş soyqırımı və etnik təmizləmə cinayətlərinə dair tarixi faktların ictimaiyyətə çatdırılması, qurbanların əziz xatirəsinin ehtiramla yad edilməsi və bu həqiqətlərin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

O qeyd edib ki, 1918-ci ilin mart-aprel aylarında Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı xüsusi qəddarlıqla həyata keçirilmiş kütləvi qırğınlar nəticəsində on minlərlə dinc insan yalnız milli və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb. Ombudsman bu hadisələrin sülh və insanlıq əleyhinə törədilmiş ağır cinayətlərdən biri - soyqırımı cinayəti kimi qiymətləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun dosenti Nazim Mustafa, eləcə də Ombudsman Aparatının əməkdaşı Polad Cəfərzadə çıxış ediblər. Ermənistan tərəfindən azərbaycanlılara qarşı uzun illər ərzində həyata keçirilmiş deportasiya və etnik təmizləmə siyasətindən, xüsusilə indiki Ermənistan ərazisi olan Qərbi Azərbaycandan yüz minlərlə soydaşımızın zorla çıxarılmasından bəhs edilib. Bildirilib ki, 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə baş vermiş deportasiya prosesləri nəticəsində azərbaycanlıların fundamental insan hüquqları kobud şəkildə pozulub.

Daha sonra Ombudsman Aparatının əməkdaşı Azadə Novruzova müəllifi olduğu "Zəfər aşiqləri: Qarakilsə şəhidləri" kitabı barədə ətraflı məlumat verib. O, kitabda Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş və itkin düşmüş Qərbi Azərbaycanın Zəngəzur mahalının Qarakilsə rayonunun döyüşçüləri haqqında bioqrafik təqdimatların qeyd edildiyini bildirib.

Tədbirdə azərbaycanlılara qarşı törədilmiş cinayətlərə beynəlxalq hüquqi qiymətin verilməsinin, onların beynəlxalq səviyyədə tanınmasının və qurbanların hüquqlarının bərpasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sərgidə nümayiş olunan arxiv sənədləri, fotoşəkillər və digər materiallar azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasətinin miqyasını və ağır nəticələrini əyani şəkildə əks etdirir. Materialların tarixi yaddaşın qorunmasına, insan hüquqları sahəsində ictimai məlumatlılığın artırılmasına və beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasına xidmət etdiyi diqqətə çatdırılıb.

Tədbirin sonunda iştirakçılar sərgi ilə tanış olublar.

Qeyd edək ki, azərbaycanlılara qarşı törədilmiş insanlıq əleyhinə cinayətlərin ombudsman tərəfindən sənədləşdirilməsi, beynəlxalq təşkilatlara müvafiq hesabat və müraciətlərin təqdim olunması istiqamətində fəaliyyət ardıcıl şəkildə davam etdirilir. "Susmayan həqiqətlər" sərgisi də bu fəaliyyətin tərkib hissəsi olaraq tarixi ədalətin bərpasına və insan hüquqlarının müdafiəsinə töhfə verməyi hədəfləyir. Sərgi martın 31-dək ziyarətçilər üçün açıq olacaq.

# Düşmənlərimiz İLHAM ƏLİYEVƏ nələri bağışlaya bilmirlər?!

**"Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti".**

**İlham ƏLİYEV**



**"Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həllinin hüquqi əsasını təşkil etmişdir".**

**İlham ƏLİYEV**

**Düşmən anlayışı mürəkkəb və çoxcəhətlidir.**

**Düşmənlərin düşmənçilik niyyəti ilə istifadə etdikləri üsul və metodlar da müxtəlif və rəngarəngdir.**

*Düşmənlərin davranışları da bir-birindən fərqlidir.*

MƏSƏLƏN:

Bir var açıq düşmənçilik...

Belədə kimsə əlinə silah götürərək üstünə gəlir, səni öldürmək, torpağına, maddi və mənəvi sərvətlərinə sahib çıxmaq, özünə tabe etmək istəyir.

*Öz ağzı ilə hürür, yoxsa arxasında duranı, silah-sursat, hərbi-maliyyə yardımı göstərərək hürdürəni var - bu, ayrı bir məsələdir.*

**Bir də var üzünə gülərək arxadan kürəyinə bıçaq saplamaq istəyənlər...**

*Bunlar daha təhlükəlidirlər.*

*Çünki nə vaxt və haradan zərbə vuracaqlarını əvvəlcədən təyin etmək çətin olur.*

**Bir də var satılmışlar, xəyanətkarlar...**

*Adları azərbaycanlı olub, özləri səninlə bir torpaqda doğulsalar da, bir Vətənin övladı sayılsalar da, içləri düşməndən də betər murdar olur.*

Belələrinin içərimizdə yaşayanları da, xaricə gedənləri də var.

Özləri özlərini "müxalifət", "bloqçu", nə bilim "azadlıq", "demokratiya" uğrunda "mübarizlər" adlandırsalar da (kasıb itinin adını "qızıl" qoyan kimi), mahiyyətləri xəyanət və satqınlıqla yoğrulmuşlardır!

**Bir tikə çörək üçün Vətəni satanlardır.**

**Pula, yaxşı dolanışığa görə namus, qeyrət, şərəf və ləyaqətdən əl çəkənlərdir.**

*Belələri üçün həyatda müqəddəs heç nə olmur:*

- Nə şəxsiyyətləri
- Nə mənlikləri
- Nə kişilikləri
- Nə qadınlara xas abır-həyaları
- Nə ailələri olur, nə ana-bacı namusu çəkirlər.
- Nə ata-ana tanıyır, nə də hansı xalqdan və millətdən əmələ gəldiklərini dərk edirlər.

*Yalnız qorxu hissləri olur:*

- Birdən ağaları onlardan imtina edərlər.
- Birdən daha pul və sifariş verməzlər.
- Birdən keçmiş vətənlərinə geri qaytararlar.

**Hətta bunları yuxuda gördükdə belə qorxudan dodaqları yeddi yerdən çatlayır.**

**Artıq onlar insan deyillər, robotlardır.**

**Eyni proqramla işləyən robotlar.**

- Dayanmadan Azərbaycana qarşı düşmənçilik edirlər.
- Dayanmadan kin və nifrətlərini Azərbaycan adlı müstəqil dövlətə tökürlər.
- Dayanmadan Azərbaycanın yaxşısını qoyub, pis cəhətdən qələmə verməyə çalışırlar.
- Dayanmadan ermənidən artıq erməni, düşməndən artıq düşmənçilik edirlər.

MƏQSƏDLƏRİ NƏDİR?

- Bilirlər ki, sözlə Azərbaycana heç nə edə bilməyəcəklər.




**"Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi".**

**İlham ƏLİYEV**

- Bilirlər ki, düşmənçiliklə bizi yolumuzdan döndərə bilməyəcəklər.
- Bilirlər ki, sayları indikindən yüz dəfə də çox olsa, yenə heç nədirlər.
- İstədikləri odur ki, Azərbaycanın böyük düşmənləri onların timsalında "vətən murdarları"ndan daim istifadə etsinlər.
- İstəyirlər ki, murdar ömürlərini keçmiş vətənlərinə xəyanətlə birtəhər başa vursunlar.
- İstəyirlər ki, satqınlıqdan gələn gəlirləri kəsilməsin.

*Qeyrətə, şərəfə yox, qarınlarına xidmət edirlər.*

❖ ❖ ❖

**Düşmənlərimiz İlham Əliyevə onun uğurlarını heç vəchlə bağışlaya bilmirlər.**

- Əslində, bu uğurlar doğma Azərbaycanımızın uğurlarıdır!
- Əslində, bu uğurlar Azərbaycanı inkişaf etdirir, yüksəldir!
- Əslində, bu uğurlar düşmənlərimizin Azərbaycana qarşı düşmənçilik niyyət və hərəkətlərini heçə çıxarır!

Azərbaycanın zəngin karbohidrogen ehtiyatları, digər yeraltı və yerüstü sərvətləri, əlverişli geosiyasi mövqeyi hər zaman çoxlarının ağzını sulandırıb.

Uzun illərboyu ondan bəhrələnənlər də olub.

Hətta bu sərvətlərə sahibliklərini əbədiliyə çevirməkdən ötrü "Qarabağ problemi" adlı bir məkrli oyun da düşünüb qurublar, öz torpaqlarımızda, öz içimizdə bizə düşmən olanları zorla yerləşdirərək bizə qarşı təzyiq alətinə çeviriblər.

*Müstəqillik niyyətinə düşdükdə, öz sərvətlərimizə özümüz sahiblik etmək istədikdə münaqişə və müharibə ocağı qalayıblar, alətə çevirdikləri milləti qabağa verərək torpaqlarımızı işğal ediblər, daxilimizdə separatçı qüvvələr yetişdiriblər, onları silahlandırıblar, hərbi cəhətdən bütün yardımları göstərərək torpaqlarımızı işğal ediblər.*



**İçimizdə "5-ci kolon" adlı satqınlar dəstəsi də təşkil ediblər, onların vasitəsilə daxili sabitliyimizi pozaraq dəfələrlə dövlət çevrilişinə, hakimiyyət dəyişikliyinə cəhdlər ediblər.**

İki əsr ərzində ən murdar üsul və vasitələrlə sərvətlərimizi mənimsəyib, torpaqlarımızı əlimizdən alaraq ermənilərə bağışlayıb, özümüzü isə dədə-baba ərazilərimizdən deportasiya edərək maddi və mənəvi abidələrimizi məhv ediblər.

**Hər şeyin başlanğıcı olduğu kimi, sonu da olur.**

Xalqlar həbsxanasına çevrilən qırmızı imperiya çürüyərək dağıldıqdan sonra uzun illər Moskvanın itaətində olan respublikalar dövlət müstəqilliyi qazanmağa başladılar.

*Lakin Kreml öz müstəmləkə siyasətini başqa formada davam etdirmək fikrindən daşınmırdı.*

**Gah MDB yaradırdı, gah KTMT, gah da Avrasiya İqtisadi Birliyi...**

*Yenə də özünü "böyük qardaş" kimi aparır, yenə də imperiya ədası ilə davranırdı...*

**Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdaraq müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirdikdən sonra "Əsrin müqaviləsi", BTC kimi nəhəng transmilli layihələri gerçəkləşdirərək ölkənin karbohidrogen ehtiyatlarına sahibliyini təmin etdikdən, müstəqil Azərbaycanın davamlı və sürətli inkişafını daim təmin edəcək siyasi kurs hazırladıqdan sonra "köhnə münasibətlər" heç nəyə yaramadı.**

*Moskvanın əli "köhnə rıçaq"lardan çıxdığından yenə "köhnə, məkrli planına əl atdı.*



**"Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq, düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq. Bu gün son iki il yarımlıq tarix göstərir ki, bu, nə qədər düzgün və düşünülmüş addım idi".**

**İlham ƏLİYEV**

Ermənistana dəfələrlə milyardlarla dollar məbləğində silah-sursat bağışlayaraq 102-ci hərbi hissəni erməni separatçılarının sərəncamına verməklə ərazimizin iyirmi faizinin işğalına nail oldu...

**Cənab İlham Əliyev Azərbaycana rəhbər seçildikdən sonra ölkənin inkişafının və işğal altındakı torpaqların azad edilməsinin yeni dövrü başladı.**

❖ ❖ ❖

- Azərbaycan Prezidenti İlham Əliyev müdrik insan, uzaqgörən siyasətçi, mahir diplomatdır!
- Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli lider, görkəmli sərkərdə, möhkəm iradə sahibidir!
- Azərbaycan Prezidenti İlham Əliyev verdiyi sözə daim əməl edən, dediyinin üstündə duran, həmişə doğru, açıq və səmimi danışandır!
- Azərbaycan Prezidenti İlham Əliyev nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilir!
- Azərbaycan Prezidenti İlham Əliyev atdığı hər addımı irəlicədən dəqiqliklə ölçüb-biçir, bütün çətinlik və gözlənilməzlikləri irəlicədən görərək nəzərə alır, ən doğru və müdrik qərarlar qəbul edir!

**Düşmənlərimiz bunları da ona bağışlaya bilmirlər!**

**İlham Əliyev açıq döyüşür, kişi kimi döyüşür, mərdliklə qələbələr qazanır!**

*Arxadan zərbə vuranlar, üzə gülərək daldada quyu qazanlar onun halal qələbələrini həzm edə bilmirlər!*

Dediklərimizi 44 günlük Zəfər müharibəsinin və ondan sonra baş verən inqilabi, misli görünməmiş dəyişikliklərin timsalında nəzərdən keçirək.

**İlham Əliyev açıq şəkildə bəyan etmişdi:**

- Azərbaycan bir qarış torpağını da kimsəyə güzəştə getməyəcəkdir!
- Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!
- Azərbaycan hansı vasitələrlə olursa-olsun öz torpaqlarını işğaldan azad edəcəkdir!

*Azərbaycan xalqı öz rəhbərinə inanır, onun ətrafında sıx birləşərək verəcəyi "İrəli" əmrini gözləyirdi!*

**İkili standartlar dünyası isə buna inanmırdı...**

- Çünki BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə havadan asılı vəziyyətdə qalmışdı...
- Çünki beynəlxalq hüquq ayaqlar altında tapdanırdı...
- Çünki beynəlxalq qurum və təşkilatlar ədaləti, Azərbaycanın haqq işini müdafiə etmirdilər, dünya erməniliyinin verdiyi pullu sifarişləri yerinə yetirirdilər.

Keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılan ATƏT-in Minsk qrupu isə dünya erməniliyinin təsiri altına düşərək ermənilərin başını sığallamaqla, sülh danışıqlarını sonsuzadək uzatmaqla məşğul olurdu.

**Həmsədr dövlətlərin hərəsi bir üsulla erməni maraqlarını təmin etməklə "erməni borcu"ndan çıxmağa çalışırdı.**

- 1993-cü ildə ABŞ Konqresi "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişi qəbul edərək işğalçı Ermənistanı yox, ərazisi işğala məruz qalan Azərbaycanı cəzalandırdı.
- Co Bayden 2021-ci ilin aprel çıxışında "erməni soyqırımı" ifadəsini işlədərək erməni diasporunun ona verdiyi "səs borcu"ndan çıxdı.
- Gethagetdə isə Ermənistanla strateji tərəfdaşlıq barədə memorandum imzaladı.

**Fransa Prezidenti Makron isə öz dövlətinin milli maraqlarını erməni maraqlarına qurban verdiyindən Fransanın ən hörmətsiz prezidentinə çevrildi.**

**Rusiya isə Ermənistanın rəhbəri N.Paşinyanın Qərbə doğru üz tutmasını haylara heç cürə bağışlaya bilmir.**

*Rusiya Azərbaycana da çox şeyi bağışlamır.*

MƏSƏLƏN:

*Azərbaycan Prezidenti cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən tam müstəqil, milli maraqlarımıza söykənən daxili və xarici siyasət yürütməyə başladı.*



Yaxın qonşusu sayılan Rusiya ilə də mehriban, qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurdu.

Cənab İlham Əliyev Azərbaycanın işğal altındakı torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəyini daim açıq şəkildə bildirirdi.

Dördgünlük Aprel müharibəsində bu niyyətləri və hərbi gücünü açıq şəkildə nümayiş etdirdi.

**Lakin nə Ermənistan, nə də onun havadarları bu xəbərdarlıqdan lazımi nəticə çıxardılar.**

*Əksinə, Ermənistanın yeni baş naziri N.Paşinyan içib sərxoş olaraq Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh danışıqlarının mənasızlığını ortaya qoydu.*

**Azərbaycan Prezidenti İlham Əliyev onun bu sərsəmləməsini cavabsız qoymadı.**

Əvvəlcə "Valday" Beynəlxalq Diskussiya Klubunda, sonra isə Münxen Təhlükəsizlik Konfransında çıxış edərək bu sərsəmləmənin cavabını verdi: "Qarabağ Azərbaycandır və nida işarəsi".

*Daha sonra azğınlaşmış düşmənə əsl həqiqətləri başa salmaqdan ötrü əməli addımlara keçdi.*

*(Ardı var)*

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın sabitlik və sülh modeli



**Müasir dünya nizamı bu gün tarixin ən ağır sınaqlarından birini keçir. Beynəlxalq hüququn işləmədiyi, qlobal təhlükəsizlik arxitekturasının sarsıldığı bir dövrdə geosiyasi güclərin toqquşan maraqları dünyanı qeyri-müəyyənliyə sürükləyir. Regional və qlobal miqyasda artan silahlı münaqişələr, qanlı müharibələr, siyasi böhranlar və təhlükəsizlik riskləri beynəlxalq münasibətlər sistemini sarsıdıb, bir çox bölgəni "qaynar qazan"a çevirib. Bu mürəkkəb və təhlükəli proseslərin fonunda Azərbaycanda müşahidə olunan sabitlik, inkişaf və tərəqqi xüsusi diqqət çəkir.**

## Prinsipial mövqe

Respublikamızın bilavasitə sərhədində yerləşən ölkələrin müharibə içərisində olduğunu nəzərə alsaq, Azərbaycanda hökm sürən sabitliyin və təhlükəsizliyin real əhəmiyyəti daha aydın şəkildə ön plana çıxır. Öz milli maraqlarını qorumağı və daxili asayişini ən yüksək səviyyədə saxlamağı bacaran ölkəmiz artıq təkcə öz vətəndaşları üçün deyil, region üçün də "təhlükəsizlik adası"na çevrilib. Bu isə məqsədyönlü və uzaqgörən dövlət siyasətinin məntiqi nəticəsidir.

Azərbaycanın təhlükəsizlik modelinin ən parlaq səhifəsi 2020-ci ildə qazanılan tarixi Zəfərdir. Uzun illər torpaqları işğal altında qalan, lakin buna rəğmən hər zaman sülh və danışıqlar yoluna üstünlük verən dövlətimiz nəticədə öz gücü ilə ədaləti bərpa etdi. Qarabağ Zəfəri dünyaya bir mesaj idi ki, dayanıqlı sülh yalnız ədalət üzərində qurula bilər. İşğala son qoyulması təkcə ölkəmizin ərazi bütövlüyünü bərpa etmədi, həm də Cənubi Qafqazda onilliklər boyu davam edən münaqişə ocağını söndürdü. 2020-ci ildən sonra bölgədə yaranan yeni reallıqlar Azərbaycanın yürütdüyü uzaqgörən siyasətin nəticəsidir. Müharibəyə son qoymaqla regionda əməkdaşlıq üçün yeni imkanlar yaradan Azərbaycan müstəqilliyinin ilk günlərindən etibarən beynəlxalq əməkdaşlığın gücləndirilməsinin tərəfdarı, qlobal problemlərin həllində aktiv tərəfdaş kimi çıxış edib.

Təsadüfi deyil ki, Azərbaycan beynəlxalq terrorçuluğa qarşı mübarizədə ön sıralarda yer alır. Ölkəmiz qlobal təhlükəsizlik koalisiyalarının fəal üzvü olmaqla, həm də regionda radikalizmin qarşısının alınmasında mühüm rol oynayır.

O cümlədən müharibələrdən, təbii fəlakətlərdən əziyyət çəkən insanlara yardımların göstərilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Dünyanın ən ucqar nöqtələrində ehtiyacı olanlara uzanan Azərbaycanın kömək əli ölkəmizin gücünün və sülhsevər mahiyyətinin göstəricisidir.

Bu gün ölkəmizə yaxın coğrafiyalarda baş verən hadisələr hər birimizi narahat edir. Azərbaycan bütün qonşu dövlətlərlə qarşılıqlı hörmət və mehriban qonşuluq prinsipləri əsasında münasibətlər qurur. Eyni zamanda dünya nəhəngləri ilə strateji tərəfdaşlığını inkişaf etdirir. Azərbaycan heç bir halda öz ərazisindən üçüncü tərəflərə qarşı istifadə olunmasına imkan vermir və sərgilənən bu prinsipial mövqe ölkəmizi regionda yaranan gərginliklərdən sığortalayır.

## İnkişaf və əməkdaşlıq yolu

Problemlərin həlli yolunun silah deyil, səmimi dialoq və diplomatik masa olduğunu hər zaman müdafiə edən Bakı bu gün münaqişə edən tərəfləri bir araya gətirə bilən, etibarlı vasitəçilik missiyasını uğurla həyata keçirən nadir paytaxtlardan biridir.

Hazırda ABŞ-dən Çinə qədər dünyanın böyük ölkələri Azərbaycanı etibarlı tərəfdaş kimi tanıyır. Bu maraq təkcə enerji resursları ilə bağlı deyil, həm də ölkəmizin bölgədəki sabitləşdirici roluna verilən qiymətdir.

2026-cı il fevralın 9-da Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Həmin görüşdə dövlətimizin başçısı vurğulayıb ki, beynəlxalq əlaqələrimizin coğrafiyası da genişlənir: "Bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var. Ölkələrdən bəziləri bir-biri ilə yaxşı münasibətdə deyil. Lakin mən hər zaman demişəm ki, Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq".

Dövlət başçısı onu da əlavə edib ki, ölkəmizin inkişaf gündəliyi göstərir ki, biz düz yoldayıq.

Azərbaycanın uğuru təhlükəsizliklə inkişafın vəhdətindədir. Sabitlik olmayan yerdə nə iqtisadi tərəqqidən, nə də sosial rifahdan danışmaq olar. Həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi" kimi enerji layihələri, Orta dəhlizin timsalında logistik imkanları Azərbaycanı enerji və nəqliyyat təhlükəsizliyinin mərkəzinə çevirib.

Dünyada qida və enerji böhranının yaşandığı bir vaxtda Azərbaycan Avropanın və regionun təminatçısı rolunda çıxış edir. Bu, ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, həm də milli təhlükəsizliyini təmin edir.

Azərbaycan bu gün qlobal siyasi fırtınaların baş verdiyi dünyada sabitlik məkanı kimi diqqət mərkəzindədir. Bakının sülhsevər siyasəti öz gücünə, haqlı mövqeyinə və milli birliyə olan inamından qaynaqlanır.

Azərbaycan hər zaman ölkələr arasında yaranmış gərginliyin qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarıdır və bu prosesə töhfə verməyə hazırdır. Onun hədəfi təkcə öz sərhədlərimiz daxilində deyil, bütün regionda dayanıqlı sülhün və tərəqqinin hökm sürməsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində milli maraqlar dayanır. Azərbaycan heç bir kənar diktəni qəbul etmir, öz yolunu özü müəyyən edir. Məhz bu müstəqil siyasət imkan verir ki, ölkəmiz qlobal böhranların, münaqişələrin baş verdiyi bir vəziyyətdə öz sabitliyini və inkişaf tempini qorusun və müəyyənləşdirdiyi düzgün yolla gələcəyə doğru inamla addımlasın.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ərazi iddiaları olan yerdə sülh mümkün deyil

**Bu gün Cənubi Qafqaz regionu seçki prosesindən daha genişmiqyaslı tarixi transformasiyanı gözləyir. Rəsmi Bakı üçün bu il Ermənistanda keçiriləcək parlament seçkiləri və konstitusiya referendumu, sadəcə, qonşu dövlətin daxili işi deyil. Bu, İrəvanın, nəhayət, "milli mif"lərin təsirindən çıxmağa hazır olub-olmadığını göstərəcək bir işdir. Reallıq ondan ibarətdir ki, sülh müqaviləsi yalnız kağız üzərində imzalanmaqla kifayətlənə bilməz. Bu saziş Ermənistan cəmiyyətinin hüquqi sistemində və ictimai şüurunda möhkəmlənməlidir.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, əsas çağırış Ermənistanın ana qanununda dəyişiklik ilə bağlıdır: "Azərbaycanla bağlı ərazi iddialarını ehtiva edən bu sənəd qüvvədə qaldığı halda dayanıqlı sülh qurmaq mümkün deyil. Ermənistan konstitusiyasının preambulasında "birləşmə" aktlarına birbaşa və ya dolayı istinad qaldığı müddətdə istənilən sülh təşəbbüsü yalnız müvəqqəti atəşkəs təsiri bağışlaya bilər. Ona görə də referendum vətəndaş məsuliyyətinin ifadəsinə çevrilməlidir. Yəni yeni konstitusiyaya "bəli" demək beynəlxalq səviyyədə tanınmış sərhədlərin qəti qəbulunu və keçmişin "ximera"larından, yəni qeyri-mümkün ideyalardan imtinanı ifadə etməlidir. Rəsmi Bakı sənədlərdə sözlərin dəyişməsini deyil, onilliklər boyu regionun inkişafına mane olmuş revanşist ideologiyanın real şəkildə aradan qaldırılmasını gözləyir".

Deputat qeyd edib ki, lakin bu sağlamlaşma yolu regiondan kənar bəzi aktorların destruktiv müdaxiləsi ilə çətinləşir. "Demokratiya" ritorikası altında Ermənistanın daxili proseslərini geosiyasi alətə çevirmək cəhdləri narahatlıq doğurur. Ayrı-ayrı paytaxtların - istər Paris, istərsə də digər Qərb mərkəzlərinin Ermənistana "forpost" və ya "mühasirədə qala" rolu biçməsi regionun sabitliyini yaxınlaşdırmır, əksinə, uzaqlaşdırır.

S.Fətəliyevanın fikrincə, bu cür yanaşma Ermənistanın siyasi dairələrində təhlükəsizlik və cəzasızlıqla bağlı yanlış illüziya yaradır və Bakı ilə birbaşa, dürüst danışıqlardan yayınmağa zəmin formalaşdırır: "Xüsusi risk radikal diaspor dairələrinin təsiri ilə bağlıdır. Belə ki, Cənubi Qafqazdan minlərlə kilometr uzaqda rahat şəraitdə yaşayan bəzi qruplar müharibə və qarşıdurma gündəliyini diktə etməyə çalışırlar. Onların seçki prosesi və referendumla bağlı müdaxiləsi region xalqlarının maraqlarını lobbi ambisiyalarına qurban vermək cəhdidir. Amma nəzərə alınmalıdır ki, Cənubi Qafqaz burada yaşayan xalqlara məxsusdur və qərarlar "regional problemlər-regional həllər" prinsipi əsasında qəbul olunmalıdır. Xarici "himayədar"lar öz geosiyasi maraqlarının dəyişdiyini görən kimi geri çəkiləcəklər, lakin azərbaycanlılar və ermənilər bu regionda yanaşı yaşamağa davam edəcəklər".

Nəticə etibarilə 2026-cı ilin dönüş nöqtəsi olacağını deyən deputat vurğulayıb ki, Ermənistan cəmiyyəti praqmatizm yolunu seçərsə, zərərli xarici ssenarilərin təsirindən imtina edərsə, region iqtisadi inteqrasiya və rifah modeli kimi formalaşa bilər. Ümid edirik ki, sağlam düşüncə kənar maraqlar üzərində üstünlük qazanacaq. Azərbaycan güclüdür və istənilən ssenariyə hazırdır. Lakin strateji seçim gələcəyə baxan, üçüncü ölkələrin imperiya ambisiyalarının təhrif olunmuş güzgüsünə deyil, sabit və konstruktiv qonşuluğa yönəlmiş Ermənistan görməkdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Tarix yazılıb, nöqtə qoyulub, geri dönüş yoxdur

## Sülh gündəliyinə qarşı pozucu fəaliyyətlərin sonu rüsvayçı fiaskodur

**Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş ölkəmiz Cənubi Qafqazda yeni nizamın təməlini qoyub. Azərbaycan öz torpaqlarını azad etməklə kifayətlənməyib, eyni zamanda regionun gələcək inkişafı üçün aydın yol xəritəsi və sülh reallığı təqdim edib. 2020-ci və 2023-cü illərdən bu yana dövlətimizin diplomatik gedişləri münaqişədən sonrakı dövrdə barışığın möhkəmləndirilməsinə xidmət edir. Xüsusən ötən ilin avqust ayındakı Vaşinqton təmaslarından sonra Azərbaycanla Ermənistan arasında sülh və əmin-amanlığın yaradılması üçün əlverişli şərait formalaşıb. Hazırda tərəflər arasında qarşılıqlı inama söykənən bir mühit qurulmaqdadır.**





Lakin son günlər baş verənlər göstərir ki, Azərbaycanın müstəqil siyasəti, sülh və regional əməkdaşlıq istiqamətində həlledici addımları bölgəni öz maraqları naminə daim gərginlikdə saxlamağa çalışan bəzi xarici mərkəzlərin siyasi ambisiyaları ilə toqquşmaqdadır. Yeni reallıqları həzm edə bilməyən, köhnə manipulyasiya rıçaqlarını itirməkdən qorxan müəyyən dairələr hələ də keçmişin qalıqlarını canlandırmağa, irəliyə doğru atılan addımları tormozlamağa çalışırlar. Çünki Azərbaycanın təqdim etdiyi sülh gündəliyi və prosesi irəliyə daşıması hərbi ritorikanı diplomatik masa ilə əvəzlədiyi üçün Cənubi Qafqazı kənar diktələrdən də xilas etmiş oldu. O səbəbdən Bakı tərəfindən irəli sürülən normallaşma gündəmi bəzi Qərb dairələrində qərəzli qrupların təşvişinə yol açır.

Sülhün real müstəviyə keçərək irəliləməsindən narahat olan həmin qüvvələr tarixin arxivinə gömülmüş separatçılığı yenidən gündəmə gətirməklə bölgəni xaosa sürükləmək məqsədi güdürlər. Bir tərəfdə Bakı və İrəvan arasında birbaşa, vasitəçisiz dialoq prosesi gedirsə, digər cinahda separatçı ölüləri "diriltməyə" çalışan, "humanizm" maskası altında siyasi təzyiq rıçaqlarını işə salan Qərb mərkəzli təşəbbüslər dayanır. Xüsusilə Avropadakı müəyyən mərkəzlərin qondarma rejimi birbaşa və ya dolayısı ilə müdafiə edən təşəbbüslərlə çıxış etdiyi görünür. Ermənipərəst qruplar və ayrı-ayrı şəxslər müxtəlif dövlətlərdə qərəzli müzakirələr təşkil edərək, hüquqi əsası olmayan müraciətlər və saxta sorğularla diqqət çəkməyə çalışırlar.

Maraqlısı odur ki, rəsmi səviyyədə Azərbaycanın ərazi bütövlüyünü tanıyan, daha doğrusu, tanıdıqlarını bəyan edən dövlətlərin parlamentlərində rəsmi mövqeyə tamamilə zidd, revanşizmi alovlandıran müzakirələr aparılır. İstər Böyük Britaniyanın İcmalar Palatasındakı dinləmələr, istərsə də İsveçrənin bəzi dairələrindəki anti-Azərbaycan təşəbbüsləri şəxsi və qrup maraqlarının dövlət maraqlarını üstələdiyini göstərir. Fevralın 25-də Böyük Britaniyanın qanunverici orqanının İcmalar Palatasında aparılan müzakirələr də Londonun rəsmi kursu ilə ziddiyyət təşkil edir. Xarici parlamentarilər birmənalı dərk etməlidirlər ki, ölkəmizdə "Dağlıq Qarabağ" adında inzibati vahid mövcud deyil və heç zaman da olmayacaq. Azərbaycanın ərazi bütövlüyü, London da daxil olmaqla, dünya birliyi tərəfindən qəti şəkildə təsdiqlənib. Bu baxımdan müzakirələrdə işlədilən qondarma terminlər və etnik mirasla bağlı əsassız iddialar tarixi və hüquqi cəhətdən saxtakarlıqdır. Bu, dövlətimizin suverenliyinə qarşı yönəlmiş qərəzli kampaniyadır. Əsas məsələ ondan ibarətdir ki, zərərli təşəbbüslər ikitərəfli münasibətləri zədələməklə bərabər, regiondakı sülh quruculuğuna da maneə yaradır. Belə həssas mərhələdə separatçılığa "can vermək" cəhdləri Ermənistandakı revanşist meyilləri körükləyir, sülhə qarşı çıxan revanşist qrupların, lobbi mərkəzlərinin iştahasını artırır və iki dövlət arasındakı barışıq cəhdlərini əngəlləyir.

Ölkəmizin ərazi bütövlüyü və suveren hüquqlarını hədəf alan təxribatçı meyillər son günlərdə "neytral" statuslu İsveçrənin siyasi dairələrində də adi praktikaya çevrilməkdədir. Özünü "beynəlxalq hüququn keşikçisi" kimi dünyaya təqdim edən bir dövlətin qanunverici orqanında Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxışların edilməsi ilk növbədə İsveçrənin özünün elan etdiyi prinsiplərə xəyanətdir. Bəzi isveçrəli parlamentarilərin rəsmi qondarma terminlər üzərindən manipulyasiya aparması və "Qarabağ mövzusu"nu süni şəkildə açıq saxlamaq cəhdləri bölgədəki kövrək sülh prosesini baltalamaqdan başqa bir şey deyil. Xüsusilə Erik fon Tobel kimi qərəzli fiqurların İrəvana səfər edərək revanşist və separatçı tör-töküntülərlə görüşməsi xoş olmayan məqsədyönlü niyyətdən xəbər verir.

Bu canfəşanlıq Ermənistandakı revanşist qüvvələrdə "beynəlxalq dəstək" illüziyası yaradaraq onları yeni münaqişələrə təhrik edir. Dünyaya "obyektivlik" dərsi keçməyə çalışan bir ölkənin parlamentində Azərbaycan əleyhinə qurulan iftira kampaniyası ikili standartların ən rəzil formasıdır. "İnsan haqları" və "demokratiya" şüarları altında maskalanaraq etnik və dini təəssübkeşlik nümayiş etdirmək, əslində, Avropanın təməl dəyərlərinin daxildən aşınması deməkdir.

Regiondan minlərlə kilometr uzaqda yerləşən bu dairələr başa düşməlidir ki, onların qərəzli addımları Azərbaycanın öz torpaqları üzərində bərqərar etdiyi yeni reallığı dəyişmək gücündə deyil. Qərəzli davranış, sadəcə olaraq, İsveçrənin beynəlxalq nüfuzuna və tərəfsiz imicinə bərpaolunmaz zərbə vurur. Bu, Qərbdə bəzi siyasi dairələrin regiona hələ də 1990-cı illərin prizmasından baxmasının təzahürüdür. Əfsuslar olsun ki, anti-azərbaycançı dairələr ölkəmizin öncüllüyü ilə Cənubi Qafqazda təhlükəsizlik sisteminin köklü surətdə dəyişdiyinin fərqinə varmaq istəmirlər. Anlamırlar ki, bu cür siyasi oyunbazlıqlar bölgədəki reallığı dəyişmək gücündə deyil.

Ona görə də bəzi Qərb paytaxtlarından idarə olunan "siyasi reanimasiya" cəhdlərinin qaçılmaz sonu fiaskodur. Revanşizm xəyallarına qapılanlar və onlara xaricdən "nəfəs" verməyə çalışanlar anlamalıdırlar ki, Cənubi Qafqazın taleyi Bakının diktə etdiyi ədalətli prinsiplər əsasında həll olunmaqdadır. Tarix yazılıb, nöqtə qoyulub və geri dönüş yoxdur. Saatın əqrəbi artıq revanşizmin və separatizmin əleyhinə işləyir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# İran səfiri Azərbaycan dövlətinə və xalqına minnətdarlığını bildirib



**"Hazırkı şəraitdə İran İslam Respublikasının atdığı addımlar beynəlxalq hüquq çərçivəsində özünümüdafiə hüququna əsaslanır və qanunidir. Qarşı tərəf hücum və təcavüzlərini davam etdirdiyi halda İran İslam Respublikasının heç bir cavab verməməsi və addım atmaması təbii ki, düzgün yanaşma olmazdı".**

AZƏRTAC xəbər verir ki, bu sözləri İran İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu İranın Azərbaycandakı səfirliyində keçirilən mətbuat konfransında söyləyib.

Səfir Azərbaycan dövlətinə və xalqına minnətdarlığını bildirib: "Azərbaycan bu çətin dövrdə həm rəsmi, həm də qeyri-rəsmi başsağlığı mesajları ilə həmrəylik nümayiş etdirib və öz dəstəyini ifadə edib. Bu, ortaq mədəniyyətimizin və münasibətlərimizin bir göstəricisidir və buna görə təşəkkürümüzü bildiririk.

Mediada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana başsağlığı verdiyini görmüsünüz.

Həmçinin xarici işlər nazirləri arasında da telefon danışığı olub. Ceyhun Bayramov və Seyid Abbas Əraqçi son proseslərlə bağlı fikir mübadiləsi aparıblar. Həmin telefon danışığında Azərbaycanın rəsmi mövqeyi ifadə edilib və qeyd olunub ki, Azərbaycan heç vaxt öz ərazisindən İrana qarşı hər hansı təhdidə yol verməyəcək.

Biz hər zaman buna inanmışıq. Azərbaycanın ən yüksəksəviyyəli rəsmiləri də bu mövqeni açıq şəkildə bəyan ediblər".

# Leyla Əliyeva "Neft bumu hamıya gülümsəyir" tamaşasının nümayişində iştirak edib



**Milli Gənc Tamaşaçılar Teatrında Xalq yazıçısı Maqsud İbrahimbəyovun "Neft bumu hamıya gülümsəyir" pyesi əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunub.**





AZƏRTAC xəbər verir ki, yazıçının yaradıcılıq irsinə həsr olunmuş, 2025-ci ilin noyabrından 2026-cı ilin fevralınadək davam edən və Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən "Neft bumu hamıya gülümsəyir" festivalı çərçivəsində təqdim olunan tamaşanın nümayişində Leyla Əliyeva da iştirak edib.

Səhnə əsərinin quruluşçu rejissoru Konstantin Soldatov, quruluşçu rəssamı Çingiz Babayev, xoreoqrafı Nigar İbrahimbəyli, səs dizaynı isə Konstantin Soldatov və Platon Soldatovdır.

Tamaşada Əməkdar artistlər Şövqi Hüseynov, Elnur Hüseynov, Rasim Cəfər, aktyorlar Bəhram Həsənov, Asya Atakişiyeva, Kərəm Hadızadə, Səbinə Məmmədzadə, Nurlan Süleymanlı, Manaf Dadaşov, Şəbnəm Hüseynova, Rəşad Səfərov, Ceyhun Məmmədov, Natiq Fərzəliyev, Ümman Budaqov, Mirzəağa Mirzəyev, Ramiq Nəsirov, Ədalət Əbdülsəməd, Hüseyn Bayramov və Mehriban Hüseynova çıxış ediblər. Sonda Leyla Əliyeva tamaşanın yaradıcı heyəti ilə görüşüb.



Qeyd edək ki, "Neft bumu hamıya gülümsəyir" festivalı Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin layihəsidir.

# "Yaşıl enerji" zonaları xalis sıfır emissiyaya çatmaq yolunda strateji əhəmiyyətə malik vasitədir"

**"Azərbaycan hazırda Xəzər-Qara Dəniz-Avropa, Mərkəzi Asiya-Azərbaycan və Azərbaycan-Türkiyə-Avropa layihələrini həyata keçirir. Həmin dəhlizlər Azərbaycanın yalnız enerji ixracında deyil, həm də qlobal dayanıqlı inkişafda öncül mövqeyə sahib olmaq niyyətini əks etdirir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanda fəaliyyət göstərən Çin tədqiqatçıları assosiasiyasının sədri, politoloq Kazbek Maygeldinov deyib.

Onun sözlərinə görə, "yaşıl enerji" zonaları xalis sıfır emissiyaya çatmaq yolunda strateji əhəmiyyətə malik vasitədir.

"Bərpaolunan enerji resursları ilə zəngin ərazilərdə qurulan və yalnız təmiz enerjinin istifadəsinə əsaslanan həmin zonalar, investisiyaların cəlbinə, dayanıqlı iqtisadi artımın təmin olunmasına və yeni iş yerlərinin yaradılmasına əhəmiyyətli töhfə verir. Azərbaycanda enerjinin saxlanması və enerji şəbəkələri üzrə - 2030-cu ilə qədər enerji saxlanc sistemlərinin gücünün 6 dəfə artırılaraq 1500 giqavata çatdırılması nəzərdə tutulub. Qazaxıstan və Azərbaycan Özbəkistanla birlikdə Xəzər dənizindən Avropa İttifaqına təmiz enerjinin ixrac edilməsi üzrə perspektivli layihə üzərində fəal çalışır. Burada günəş və külək enerjisi, eləcə də "yaşıl hidrogen" istehsalı nəzərdə tutulub. Hazırda bu məqsədlə ölkələr Xəzər dənizinin dibi ilə sualtı kabelin çəkilməsi və daha sonra Gürcüstan vasitəsilə Qara dənizə çıxışın təmin edilməsi, onu Şərqi Avropanın enerji şəbəkələrinə birləşdirmə imkanlarını müzakirə edir. Planlara Qazaxıstandan təxminən 7 giqavat və Özbəkistandan 5 giqavata qədər bərpaolunan enerji ixracı daxildir. Məqsəd bu tranzit enerji dəhlizini 2030-cu ilə qədər işə salmaqdır. Məncə, layihə olduqca səmərəli və texniki cəhətdən mümkündür", - deyə politoloq nəzərə çatdırıb.

Kazbek Maygeldinov vurğulayıb ki, hazırkı tarixi dövrdə bütün inkişaf etmiş ölkələr kimi külək enerjisindən, Xəzər dənizinin nəhəng külək potensialından istifadə etmək düşünülür və bu istiqamətdə böyük addımlar atılır: Potensial Quraşdırılmış Gücdən İstifadə Əmsalı (QGİƏ) 50 faizə çata bilər ki, bu da Xəzər dənizinin külək enerjisini qlobal liderə çevirə bilər. Bundan əlavə, təxmin edilən texniki potensial 30 giqavatdan çox quraşdırılmış güc olaraq qiymətləndirilir, bu da ölkələrimizin mövcud enerji tutumları ilə müqayisə edilə bilər. Şimali Xəzərin nisbətən dayaz suları da külək potensialının inkişaf etdirilməsini perspektivli edir ki, bu da kapital xərclərini əhəmiyyətli dərəcədə azaldır. Yəni az sərmayə qoyuluşu ilə çox enerji istehsal etmək olur. Bu layihələrdə Azərbaycan mühüm rol oynayır. Azərbaycanın əhəmiyyəti ondan ibarətdir ki, onun həm alternativ enerji, həm də tranzit potensialı böyükdür".

# Rəqəmsal dünyanın kibertəhlükə bəlası

## Azərbaycan dövləti bu bəladan qorunmaq üçün operativ tədbirlər görür

**Zaman o zamandır ki, biz artıq texnologiyasız yaşaya bilmirik. Smartfonlar, kompüterlər, sosial şəbəkələr həyatımızın bir parçasına çevrilib. Lakin bu böyük imkanlarla bərabər, təhlükələr də gəlib. Şəxsi məlumatlarımızın oğurlanması, fişinq hücumları ( aldatma və manipulyasiya yolu ilə məlumat oğurluğu), uşaqlar üçün uyğun olmayan, zərərli materiallar və hətta böyüklərin də aldadılmasına səbəb ola biləcək onlayn tələlər hər gün qarşımıza çıxır. Bu səbəbdən rəqəmsal savadlılıq və kibermaarifləndirmə həyatın olmazsa olmazına çevrilib.**



Rəqəmsal savadlılıq insanın interneti və texnologiyanı ağıllı, təhlükəsiz və məsuliyyətlə istifadə etməyi bacarması deməkdir. Bu, yalnız kompüter bilikləri ilə məhdudlaşmır. O doğru informasiyanı seçmək, sosial şəbəkələrdə etik davranmaq və şəxsi məlumatlarını qorumaq bacarığını əhatə edir. Rəqəmsal savadlı insan məlumatın doğru və etibarlı olub-olmadığını seçə bilir, fərqli mənbələri araşdırır və dəyərləndirir, sosial şəbəkələrdə etik və hörmətli davranış sərgiləyir. Bu gün şəxsi məlumatların internetdə yayılması, şifrə oğurluğu və kibertəhlükələr hər kəs üçün real risklərdir. Ona görə də rəqəmsal savadlı insan həm texnologiyalardan effektiv istifadə edir, həm də öz təhlükəsizliyinə diqqət göstərir. O, şübhəli linklərdən uzaq durmağı, güclü şifrələr seçməyi və şəxsi məlumatlarını paylaşmazdan əvvəl iki dəfə düşünməyi öyrənir. Bir sözlə, rəqəmsal savadlılıq yalnız texniki bacarıq deyil, həm də ağıllı və məsuliyyətli davranış vərdişidir.

Bundan əlavə, rəqəmsal savadlılıq insanların tənqidi düşünmə qabiliyyətini də gücləndirir. İnternetdə hər gün minlərlə xəbər və məlumat yayımlanır. Həmin məlumatlar bəzən həqiqət yox, feyk olur. Saxta, dezinformasiya yayan xəbərlər isə insanları qorxutmaq, çaşdırmaq və ya yanlış qərarlar verməyə yönəltmək məqsədilə yayılır. Amma rəqəmsal savadlı insanlar bu məlumatları süzgəcdən keçirir, yalan və ya manipulyasiya edilmiş məlumatları ayırd etməyi bacarır. Bütün bunlar o deməkdir ki, rəqəmsal savadlılıq informasiyanın sel kimi üzərimizə gəldiyi bir dövrdə doğru ilə yanlışı seçə bilmək, məlumatın mənbəyini sorğulamaq və düşünülmüş qərarlar vermək məsuliyyətidir.

Bu gün rəqəmsal mühitdə savadlı insanlar tətbiqdən istifadə etməyi bacarır, manipulyasiyalara qarşı ayıq olur, dezinformasiyanı tanıyır və məlumatı şüurlu şəkildə dəyərləndirirlər. Rəqəmsal dünya bizə sürət və rahatlıq qazandırmaqla yanaşı, bizdən seçim və məsuliyyət tələb edir. Məhz buna görə də rəqəmsal savadlılıq müasir insanın ən vacib bacarıqlarından hesab olunur.

Kibermaarifləndirmə isə insanları internet təhlükələrindən xəbərdar etmək, onlara qorunma yollarını öyrətmək prosesidir. Bu, yalnız texniki biliklərin mənimsənilməsi deyil, həm də internetdə rast gəlinən risklərin fərqinə varmaq və onlarca davranış strategiyasını formalaşdırır. Uşaqlar və gənclər, hətta böyüklər də düzgün təhsil və maarifləndirmə olmayanda bu təhlükələrə qarşı həssas olurlar. Məsələn, yalançı və manipulyativ mesajlar, zərərli proqramlar və ya sosial şəbəkələrdəki saxta, uydurma informasiyalar onların şəxsi məlumatlarını, maliyyə və ya hətta psixoloji təhlükəsizliyini riskə ata bilər.

Kibermaarifləndirmə insanların onlayn təhlükələrə qarşı hiss və duyğularını, eləcə də davranışlarını gücləndirir. Şifrə seçimi, ikifaktorlu autentifikasiya (onlayn hesabınıza daxil olarkən təhlükəsizliyi artırmaq üçün iki fərqli təsdiq mərhələsindən keçmək), şəxsi məlumatların qorunması, şübhəli linklərdən uzaq durmaq və sosial şəbəkələrdə etibarlı ünsiyyət kimi bacarıqlar kibermaarifləndirmənin əsas komponentlərindəndir. Bundan əlavə, kibermaarifləndirmə cəmiyyətdə etibarlı rəqəmsal mədəniyyətin yaranmasına da xidmət edir. İnsanlar onlayn davranışlarının nəticələrini başa düşəndə özlərini və digər istifadəçiləri də qorumağa başlayırlar. Bu, xüsusilə uşaqlar üçün həyati əhəmiyyət daşıyır. Uşaqların təhlükəsiz böyüməsi, zərərli vərdişlərdən və yanlış məlumatlardan qorunması üçün kibermaarifləndirmənin mühüm əhəmiyyəti var. Kibermaarifləndirmə onların sağlam informasiya mühitində inkişafını və rəqəmsal təhlükəsizlik mədəniyyətinin formalaşmasını təmin edir.

Bu baxımdan Prezident İlham Əliyevin imzaladığı "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" sərəncam rəqəmsal məkanda uşaqların təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş mühüm sənəddir. Sərəncamın məqsədi uşaqların internet mühitində zərərli informasiyadan, mənfi təsirlərdən və potensial təhlükələrdən qorunmasını gücləndirmək, aidiyyəti dövlət qurumlarının bu sahədə fəaliyyətini əlaqələndirməkdir. Sənəddə maarifləndirmə tədbirlərinin genişləndirilməsi, təhlükəsiz rəqəmsal davranış qaydalarının təbliği və müvafiq hüquqi və təşkilati mexanizmlərin təkmilləşdirilməsi nəzərdə tutulur.

Kibermaarifləndirmə hər yaşda insanın qoruyucu qalxanı rolunu oynayır. Ona görə də rəqəmsal savadlılıq və kibermaarifləndirmənin yalnız söz olaraq deyil, əməli fəaliyyət göstərməsi olduqca vacibdir. Xüsusən regionlarda bu istiqamətdə keçirilən maarifləndirici tədbirlər gələcək nəslin təhlükəsiz rəqəmsal mühitdə formalaşmasına təkan verir. Bir neçə gün əvvəl Biləsuvar Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və Milli Süni İntellekt Mərkəzinin təşkilatçılığı ilə "Rəqəmsal savadlılıq və kibermaarifləndirmə" təlimləri keçirilməsi gənclərin, müəllimlərin və ümumilikdə ictimaiyyət nümayəndələrinin rəqəmsal bacarıqlarının inkişafına, kibertəhlükələrə qarşı daha hazırlıqlı və məlumatlı cəmiyyətin formalaşmasına xidmət edir. Ümumiyyətlə, bu cür təlimlərin əsas məqsədi dövlət qulluqçularının rəqəmsal bacarıqlarını daha çox inkişaf etdirmək, onların kibertəhlükəsizlik sahəsində biliklərini möhkəmləndirmək və müasir texnologiyalardan səmərəli istifadə vərdişlərini formalaşdırmaqdır.

Biləsuvarda keçirilmiş tədbirə gəldikdə isə, təlimdə müxtəlif dövlət qurumlarını təmsil edən 40-dan çox əməkdaş iştirak edib ki, bu da mövzuya marağın və ehtiyacın yüksək olduğunu göstərir. Təlim zamanı rəqəmsal savadlılığın əsas komponentləri, müasir iş mühitində tətbiq olunan rəqəmsal alətlər və onların təhlükəsiz istifadəsi qaydaları barədə ətraflı məlumat verilib, iştirakçılara praktik tövsiyələr təqdim olunub. Xüsusilə kibertəhlükəsizlik və məlumatların mühafizəsi mövzusu diqqət mərkəzində saxlanılıb. Sənədlərlə işləyərkən əməl edilməli təhlükəsizlik qaydaları, informasiya ehtiyatlarının və sistemlərinin kiberrisklərdən qorunması üçün tətbiq olunan əsas prinsiplər və alətlər real nümunələr əsasında izah edilib.

Təlim çərçivəsində süni intellekt vasitələrinin imkanları da iştirakçılara əyani nümayiş etdirilib. Bu texnologiyaların sənəd dövriyyəsində, məlumatların təhlilində və vaxtın səmərəli idarə edilməsində necə tətbiq oluna biləcəyi praktiki təqdimatlarla göstərilib. Müzakirələr zamanı süni intellektin dövlət qulluqçularının "rəqəmsal köməkçisi"nə çevrilməsi, qərarvermə prosesində analitik imkanların genişləndirilməsi və ümumi iş məhsuldarlığının artırılması perspektivləri vurğulanıb. Təlim yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənməyib, eyni zamanda dövlət qulluqçularının gündəlik fəaliyyətində tətbiq oluna biləcək real və faydalı bacarıqların formalaşdırılmasına da xidmət edib.

Beləliklə, rəqəmsal dünyanın bir parçası olduğumuz indiki zamanda hər birimiz öz onlayn davranışımıza daha məsuliyyətlə yanaşmalıyıq. Çünki seçdiyimiz parolların təhlükəsizliyindən tutmuş, daxil olduğumuz linklərə qədər atdığımız hər addım şəxsi təhlükəsizliyimizə birbaşa təsir göstərir. Uşaqlarımızı və yaxınlarımızı internet mühitində mövcud risklər barədə məlumatlandırmaq isə artıq seçim deyil, vətəndaşlıq borcudur. Unutmaq olmaz ki, rəqəmsal savadlılıq və kibermaarifləndirmə dəyişən dünyada təhlükəsiz qalmağın, doğru qərar verməyin və məsuliyyətli davranmağın vacib şərtidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Uşaqların rəqəmsal mühitdə qorunması ilə bağlı hüquqi aktlar qəbul olunacaq

**Müasir dövrdə informasiya sürətlə yayılır və rəqəmsal platformalar həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bütün bunların nəticəsi olaraq məlumatlar daha da əlçatan olub. Lakin bu inkişaf həm də zərərli informasiyaların yayılması üçün imkanlar yaradır. Xüsusilə qeyd edilməlidir ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafının, rəqəmsal texnologiyaların tətbiqinin, sosial şəbəkələrin geniş istifadəsinin uşaqlar üçün yaratdığı risklər də zaman keçdikcə daha qabarıq şəkildə ortaya çıxır. Bu baxımdan uşaqların zərərli informasiyadan qorunması aktual məsələdir.**



Prezident İlham Əliyevin uşaqların rəqəmsal mühitdə müdafiəsi sahəsində balanslaşdırılmış, sübuta əsaslanan və sistemli yanaşmanın, sosial şəbəkələrdən istifadə sahəsində rəqəmsal bacarıqların təşviqi, onlayn davranış mədəniyyətinin formalaşdırılması və yaradıcı rəqəmsal potensialın inkişaf etdirilməsi məqsədilə fevralın 27-də imzaladığı "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" sərəncamı bu sahədə özünü göstərən problemlərin aradan qaldırılmasında böyük rol oynayacaq.

Bu gün uşaqların həyatı, sadəcə, ailə və məktəblə məhdudlaşmır. Reallıq göstərir ki, onlar erkən yaşlardan sosial şəbəkələrdə profillər yaradır, müxtəlif platformalarda ünsiyyət qurur, oyun oynayır, məlumat əldə edir və paylaşırlar. Rəqəmsal mühit onların dünyagörüşünün formalaşmasına birbaşa təsir göstərir. Lakin informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı uşaqlara yeni bilik və bacarıqlar qazandırmaqla yanaşı, onları zərərli məzmun, manipulyativ təsirlər, saxta məlumatlar və kibertəzyiq kimi təhlükələrlə də üz-üzə qoyur.

Sərəncamda qeyd olunur ki, beynəlxalq təşkilatların və elmi mərkəzlərin araşdırmaları, eləcə də müxtəlif ölkələrin təcrübəsi göstərir ki, uşaqların rəqəmsal mühitdə qorunması xüsusi diqqət tələb edir. Onların psixoloji sağlamlığının, təhlükəsizliyinin və normal inkişafının təmin olunması üçün həm hüquqi mexanizmlər, həm də texnoloji müdafiə vasitələri tətbiq edilməlidir. Bu çərçivədə uşaqların şəxsi məlumatlarının, ləyaqətinin və təhlükəsizliyinin dövlət tərəfindən qorunması vacib amildir. Beynəlxalq praktikada, xüsusilə sosial şəbəkələrin fəaliyyətinə nəzarətin gücləndirilməsi, uşaqlar üçün risklərin azaldılması və məlumatların daha ciddi qorunması istiqamətində tələblərin artırılması müşahidə edilir.

Eyni zamanda rəqəmsal savadlılığın artırılması da xüsusi önəm daşıyır. Sadəcə, qadağalarla problemi həll etmək mümkün deyil. Uşaqlar və valideynlər rəqəmsal təhlükəsizlik qaydaları barədə maarifləndirilməlidirlər. Media savadlılığı təhsil proqramlarının ayrılmaz hissəsinə çevrilməli, bağça və məktəblərdə sosial şəbəkələrdən təhlükəsiz və filtrli istifadə mexanizmləri tətbiq olunmalıdır.

Prezident İlham Əliyevin sərəncamında məhz bu sosial reallıqlar nəzərə alınıb. Sərəncamda qeyd olunur ki, sosial münasibətlərin sürətlə rəqəmsallaşması və sosial şəbəkələrin uşaqların gündəlik həyatına getdikcə daha erkən yaşda daxil olması, həmin şəbəkələr vasitəsilə informasiyanın istehsalı, yayılması və istehlakının miqyasının artması bu sahədə hüquqi tənzimləmənin mövcud vəziyyətinin müasir texnoloji, sosial və təhlükəsizlik çağırışları baxımından təhlilini və təkmilləşdirilməsini zəruri edir.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyəti dövlət orqanlarını (qurumlarını), elmi müəssisə və təşkilatları, mütəxəssisləri və vətəndaş cəmiyyəti institutlarını cəlb etməklə və beynəlxalq təcrübə nəzərə alınmaqla, ölkə ərazisində uşaqların sosial şəbəkələrdəki zərərli məzmun və təsirlərindən qorunmasını, o cümlədən sosial şəbəkələrdə qeydiyyat zamanı yaş məhdudiyyətinin tətbiqini əhatə edən normativ-hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

Habelə Nazirlər Kabineti məktəbəhazırlıq qruplarında və ümumi təhsil müəssisələrində mobil və elektron cihazlardan istifadəyə dair qaydaların müəyyən edilməsi və tətbiqi ilə bağlı tədbirlər görülməsini təmin edəcək, məktəbəhazırlıq və ümumi təhsil fənləri üzrə təhsil proqramlarına (kurikulumlara), o cümlədən məzmun standartlarına rəqəmsal savadlılıq, kibertəhlükəsizlik və məsuliyyətli onlayn davranış mövzularının daxil edilməsi, eyni zamanda mediada valideynlər, müəllimlər və uşaqlara yönələn maarifləndirmə proqramlarının hazırlanıb həyata keçirilməsi ilə bağlı tədbirlər görəcək. Sosial şəbəkələrdən qanunauyğun istifadənin, belə istifadə zamanı uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi ilə bağlı mütəmadi maarifləndirmə işinin həyata keçirilməsi, o cümlədən uşaqların rəqəmsal rifahına dair elmi tədqiqatlar aparılmasının təşviq edilməsi məqsədilə də tədbirlər görüləcək.

Uşaqların zərərli informasiyadan qorunması istiqamətində atılan addımlar gələcək nəsillərin sağlam formalaşmasında əhəmiyyətli rol oynayır. Bu, həm də cəmiyyətimizin mənəvi baxımdan sağlam və güclü gələcəyi deməkdir. Bu baxımdan Prezident İlham Əliyevin imzaladığı "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" sərəncam göstərir ki, respublikamızda rəqəmsal mühitdə uşaqların qorunması sahəsində tamamilə yeni mərhələ başlanır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

# Bolqarıstan-Azərbaycan tərəfdaşlığı strateji zirvəyə yüksəlib

**Şərqi Avropa ölkələri Azərbaycanın xarici siyasətində əhəmiyyətli rol oynayır. Özünəməxsus tarixə, iqtisadiyyata və mədəniyyətə malik olan Bolqarıstan da Azərbaycanın tərəfdaşları sırasına daxildir. Ölkəmizin Bolqarıstanla strateji əməkdaşlıq münasibətləri artıq yeni səviyyəyə yüksəlmişdir. Bu əməkdaşlıq ilk növbədə qardaş ölkənin enerji təhlükəsizliyinin təmin olunmasına yönəlmişdir və Azərbaycanın Avropa siyasətinin tərkib hissəsidir.**

Bolqarıstanın əsas ticarət tərəfdaşları xarici ticarət dövriyyəsinin böyük hissəsini təşkil edən Avropa Birliyi ölkələridir (Almaniya, Rumıniya, İtaliya və Yunanıstan). Əsas ticarət tərəfdaşlarına həmçinin Türkiyə, Çin, Serbiya, ABŞ və Rusiya daxildir. Onun ixrac məhsullarına maşınqayırma məhsulları, emal olunmuş neft və mis daxildir.

Beynəlxalq Valyuta Fondunun məlumatına görə, Bolqarıstanın nominal (cari) ümumi daxili məhsulu 2025-ci ilə 127,92 milyard dollar təşkil edib. Bolqarıstan yüksəkgəlirli bir ölkədir və adambaşına düşən iqtisadiyyata görə 145 ölkə arasında 48-ci yerdə qərar tutub.

Bolqarıstan Respublikası ölkəmizin dövlət müstəqilliyinin bərpasını 14 yanvar 1992-ci ildə tanıdı. İki ölkə arasında diplomatik münasibətlər isə 5 iyun 1992-ci ildə quruldu. Siyasi münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və dialoqun əhəmiyyəti olduqca böyükdür. Əməkdaşlığın genişlənməsi üçün hüquqi zəmin də yaradılıb. Azərbaycan və Bolqarıstan arasında enerji, nəqliyyat, iqtisadiyyat, təhsil və mədəniyyət sahələrində 60-dan çox sənəd imzalanıb. Əsas sənədlər strateji tərəfdaşlıq, enerji təhlükəsizliyi, investisiya təşviqi, gəlirlərin ikiqat vergiyə cəlb olunmasının qarşısının alınması və mütəşəkkil cinayətkarlıqla mübarizəni əhatə edir.

Prezident İlham Əliyev 13 mart 2025-ci ildə Bolqarıstanın xarici işlər naziri Georg Georgiyevi, iyunun 18-də isə Bolqarıstan Respublikası Milli Assambleyasının Sədri Natalya Kiselyovanı qəbul etdi və onlarla faydalı müzakirələr apardı. 2025-ci il sentyabrın 24-də Nyu Yorkda Prezident İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov ilə görüşü oldu. Baş nazir Rosen Jelyazkov Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev də öz növbəsində münasibətlərimizin ənənəvi dostluq və tərəfdaşlıq xarakteri daşıdığını qeyd etdi.

Hazırda Bolqarıstan və Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) çərçivəsində də iqtisadi əlaqələri inkişaf etdirirlər. Belə ki, 2025-ci il iyunun 18-də bu təşkiatın Parlament Assambleyasının Bakıda 65-ci plenar sessiyası keçirildi. Bolqarıstan Respublikasının Milli Assambleyasının spikeri Natalya Kiselyova bu nüfuzlu beynəlxalq tədbirdə iştirak etmək üçün Bakıda səfərdə oldu. O vurğulamışdı ki, Azərbaycanın QDİƏT PA çərçivəsindəki rolu mübaliğəsiz olaraq həlledicidir.

"Cənub qaz dəhlizi" Azərbaycan və Bolqarıstan arasında enerji əməkdaşlığının genişləndirilməsində mühüm rol oynayır.

Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 7-ci iclası 2025-ci il oktyabrın 30-da Sofiya şəhərində olmuşdur. Həmçinin iclas çərçivəsində elə həmin gün Sofiyada Bolqarıstan-Azərbaycan biznes-forumu da keçirilmişdir. Tədbirdə hər iki ölkənin dövlət qurumlarının rəsmiləri, eləcə də kənd təsərrüfatı, iqtisadiyyat, enerji, informasiya və kommunikasiya texnologiyaları, qida, yüngül sənaye, elmi-texniki və humanitar, sosial, səhiyyə, ətraf mühit, turizm və digər sahələri təmsil edən 80 Bolqarıstan və 25 Azərbaycan şirkətinin nümayəndələri iştirak etmişdilər.

Ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiya çərçivəsində əlaqələr genişləndirilir. 2025-ci ilin yanvar-oktyabr aylarında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 666,51 milyon dollar, o cümlədən ixrac 646,287 milyon dollar, idxal isə 19,578 milyon dollar təşkil etmişdir.

Azərbaycandan Bolqarıstana ixracın tərkibi: təbii qaz, karbamid gübrəsi, propil və izopropil spirti, alüminium ərintiləri və sairə təşkil edir. Bolqarıstandan Azərbaycana ixrac edilən məhsulları isə yüngül distilyatlar, dərman vasitələri, kağız və karton məmulatları, mexanizm, elektrotexniki avadanlıqlar və hissələri, müxtəlif ərzaq məhsulları (qida əlavələri), unlu qənnadı məmulatları, paltar və geyim ləvazimatları və sairə təşkil edir.



Enerji, o cümlədən "yaşıl enerji" sektorundakı əməkdaşlıq təkcə Bolqarıstan üçün deyil, bütün Avropa regionu üçün enerji təhlükəsizliyini gücləndirən mühüm amildir. Son illər enerji sahəsində aktiv qarşılıqlı fəaliyyət həyata keçirilir. Azərbaycan Bolqarıstanın enerji təhlükəsizliyində mühüm tərəfdaşdır. Xüsusilə Yunanıstan-Bolqarıstan İnterkonnektoru vasitəsilə təbii qaz təchizatı həyata keçirilir. Bolqarıstan hökuməti təbii qaz təchizatını şaxələndirmək və regionda enerji təhlükəsizliyini artırmaq istiqamətində Azərbaycanla səmərəli əməkdaşlıq edir. Bolqarıstanın Azərbaycanla tərəfdaşlığı enerji müstəqilliyi və təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bolqarıstan Azərbaycanın qlobal enerji layihələrində fəal iştirakçılardan biridir.

Tərəflər enerji ilə yanaşı, kənd təsərrüfatı, qida emalı, turizm və beynəlxalq yük daşımaları da daxil olmaqla iqtisadi əlaqələri inkişaf etdirmək üçün əhəmiyyətli potensiala malikdirlər.

22 mart 2025-ci ildə Bolqarıstanın turizm naziri Azərbaycanın bu ölkədəki səfiri ilə turizm sahəsində ikitərəfli münasibətlərin inkişafının imkanlarını müzakirə etdilər. Aprelin 11-də isə Bolqarıstanın mədəniyyət naziri Azərbaycanın Sofiyadakı səfiri ilə görüşündə mədəni əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etdi. İspaniyanın Barselona şəhərində səfərdə olan Azərbaycanın mədəniyyət naziri Adil Kərimli UNESCO-nun Mədəniyyət Siyasətləri və Dayanıqlı İnkişaf üzrə Dünya Konfransı çərçivəsində sentyabrın 29-da Bolqarıstanın mədəniyyət naziri Marian Başev ilə görüşüb müzakirələr apardı.

Hazırda iki ölkənin təhsil nazirlikləri arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan Sofiya şəhərində imzalanmış Anlaşma Memorandumu fəaliyyət göstərir.

Qarşılıqlı mədəni əlaqələrin inkişafında incəsənət sərgilərinin rolu böyükdür. Belə sərgilər Azərbaycan və Bolqarıstan arasında qarşılıqlı hörmət və dostluğun əlamətidir və bir-birinin adət-ənənələrini, mədəniyyətlərini daha yaxından tanımağa kömək edir.

Sərgidə ölkəmizin mədəni turizm sərvətlərini, qədim tarixini, adət-ənənələrini, zəngin mədəniyyətini, füsunkar təbiətini əks etdirən milli stend nümayiş etdirilərək müvafiq fotoşəkillər, suvenirlər və xalılar, eyni zamanda milli mətbəx nümunələri təqdim edildi.

Keçən il oktyabrın 18-də isə Sofiya Universitetinin mərkəzi foyesində "Azərbaycan suveren dövlətçilik yolunda" adlı sərgisinin açılış mərasimi keçirildi. Sərgidə Azərbaycanın müasir dövlətçilik tarixi, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin Azərbaycan dövlətçiliyinin bərqərar olmasında müstəsna xidmətləri, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, Azərbaycanın xarici siyasəti və hüquq sistemi, həmçinin Azərbaycan-Bolqarıstan münasibətləri barədə kitab və fotoşəkillər təqdim edildi.

Bu il fevralın 11-də Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Bolqarıstan Respublikasının xarici işlər naziri Georg Georgiyev tərəfindən "Bir tərəfdən Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi ilə digər tərəfdən Azərbaycan Respublikası Hökuməti arasında Bolqarıstan Respublikasının Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Saziş" imzalandı. Azərbaycan-Bolqarıstan strateji tərəfdaşlığının təzahürü olan Şuşa Parkının Veliko Tırnovo şəhərində salınması layihəsi qardaşlaşmış şəhərlər olan Şuşa ilə Veliko Tırnovo arasında mədəniyyət və turizm əlaqələrinin daha da dərinləşməsinə töhfə verəcəkdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Bolqarıstanın Veliko Tırnovo şəhərində Trapezitsa Arxeoloji Muzey Qoruğunun bərpasını da bolqar əhalisi heç vaxt unutmayacaq. Keçən il mayın 14-də Sofiya şəhərində Azərbaycanın Bolqarıstandakı səfirliyi və Bolqarıstanın Ali Təhlükəsizlik və İqtisadiyyat Məktəbinin təşkilatçılığı ilə "Azərbaycanın işğaldan azad edilmiş ərazilərində humanitar təhdid və çağırışlar" mövzusunda "dəyirmi masa" keçirildi.

Göründüyü kimi, elə bir sahə yoxdur ki, orada qarşılıqlı əlaqələr inkişaf etməsin. Bu gün Bolqarıstan Azərbaycan üçün Avropaya açılan pəncərə rolunu oynadığı kimi, dost Azərbaycan da Bolqarıstan üçün Şərq dünyasına, Asiyaya açılan qapıdır. Yetər ki, Şərqi Avropada və Orta Şərqdə müharibələrə son qoyulsun, əmin-amanlıq bərqərar olsun, dinc, sakit həyat hökm sürsün!

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Qars-İğdır-Naxçıvan dəmir yolu Zəngəzur dəhlizinin funksionallığını gücləndirəcək

**Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə regionda yeni inkişaf və əməkdaşlıq mərhələsinin əsasını qoydu. Bu istiqamətdə xüsusilə Türkiyə ilə Azərbaycanın strateji tərəfdaşlığı regionun geosiyasi xəritəsini dəyişən, Avrasiya məkanında yeni iqtisadi və nəqliyyat reallıqları yaradan konkret layihələrlə möhkəmlənir.**



Belə layihələrdən biri də Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsidir. Bu dəmir yolu həm iqtisadi, həm də geosiyasi əlaqələr baxımından olduqca əhəmiyyətlidir. Layihə yerli sahibkarların ixrac imkanlarını artırmaqla yanaşı, kənd təsərrüfatı məhsulları üçün yeni bazarlar açacaq, həmçinin logistik mərkəzlərin yaradılmasında da zəmin rolu oynayacaq. Bu layihənin turizmin inkişafına da böyük təsiri olacaq. Ən əsası isə Qars-İğdır-Naxçıvan dəmir yolu bölgədə davamlı sülh və təhlükəsiz mühitə zəmin yaradacaq.

223,9 kilometrlik Qars-İğdır-Naxçıvan dəmir yolu ilə qatarların sürəti saatda 150-160 kilometr olacaq. Layihə çərçivəsində uzunluğu 638 metr olan 10 körpü, 5 tunel, 18 kilometr uzunluğunda 465 suötürücü, ümumilikdə 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid, 20 yerüstü keçid inşa ediləcək. Xətt boyunca Diqor, Tuzluca, İğdır, Aralıq və Dilucu stansiyalarının yaradılması nəzərdə tutulur. Elektrik təchizatı üçün 6 böyük transformator məntəqəsi qurulacaq. İldə 5,5 milyon sərnişin və 15 milyon ton yük daşınması planlaşdırılır. Layihənin 5 il müddətində, təxminən 2029-cu ildə başa çatdırılması nəzərdə tutulsa da, iki qardaş ölkə işləri sürətləndirərək bu nəhəng kommunikasiya xəttini daha tez istifadəyə verməyə çalışır. Qars-İğdır-Naxçıvan xəttinin əsas üstünlüklərindən biri onun Bakı-Tbilisi-Qars dəmir yolu ilə inteqrasiyasıdır. Bu inteqrasiya nəticəsində Qars ilə Bakı arasında iki alternativ dəmir yolu marşrutu formalaşacaq.

Bu layihə reallaşdıqdan sonra Türkiyə ilə Azərbaycan arasında fasiləsiz dəmir yolu əlaqəsi qurulacaq. Bu həm də türk dünyası ilə əlaqələrin möhkəmlənməsinə xidmət edəcək. Lakin Qars-İğdır-Naxçıvan dəmir yolunun rolu, sadəcə, Türkiyə ilə Azərbaycanı birləşdirməkdən ibarət deyil. Bu xətt gələcəkdə Avropa ilə Asiyanı birləşdirən əsas beynəlxalq nəqliyyat və ticarət arteriyalarından birinə çevrilə bilər. Beləliklə, region qlobal yükdaşımalar sistemində daha aktiv mövqe tutacaq və Orta Dəhlizin əhəmiyyəti daha da artacaq.

Qars-İğdır-Naxçıvan xətti Naxçıvan Muxtar Respublikası üçün xüsusi əhəmiyyət daşıyır. Azərbaycandan gələn yüklər Qarsdan Naxçıvana yönləndirilə biləcək, Naxçıvanla Bakı arasında yükdaşımalar ucuzlaşacaq, Naxçıvandan Bakıya sərnişin daşınması asanlaşacaq, ticarət və turizm canlanacaq. Həmçinin Gürcüstan marşrutunda mümkün problemlər alternativ xətt vasitəsilə kompensasiya ediləcək. Bu xətlər bir-birini tamamlayır və Orta dəhlizin dayanıqlığını artırmaq gücündədir.

Bu dəmir yolunun açılması Zəngəzur dəhlizinin (TRIPP) funksionallığını gücləndirəcək, Cənubi Qafqazda iqtisadi əməkdaşlıq üçün yeni mərhələ yaradacaq. Dəhliz tam fəaliyyətə başladıqdan sonra Qafqaz regionunda, xüsusilə sərhəd bölgələrində yerləşən ərazilərin nəqliyyat və enerji infrastrukturu daha sürətlə inkişaf edəcək. Bu isə həmin ərazilərin iqtisadi baxımdan möhkəmlənməsinə, investisiya imkanlarının artmasına və yeni iş yerlərinin açılmasına səbəb olacaq.

Dəmir yolu həmişə inkişafın simvolu olub. Bu gün Qars-İğdır-Naxçıvan layihəsinin Orta dəhlizə inteqrasiyası Azərbaycanın tranzit gəlirlərini artıracaq. Eyni zamanda bu xətt Türk Dövlətləri Təşkilatına üzv ölkələrin də iqtisadi əlaqələrinə müsbət təsir göstərəcək. Qars-İğdır-Naxçıvan dəmir yolu Avropa ilə Asiyanı birləşdirən yeni iqtisadi körpü, regionda sabitlik və əməkdaşlıq üçün strateji platformadır. Azərbaycanın Qarabağ zəfərindən sonra formalaşan yeni reallıqlar əsasında bu layihə uzaqgörən siyasi qərarın və regional inteqrasiyanın real təcəssümüdür.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan UNESCAP-ın 13-cü Regional Forumunda təmsil olunub

**Azərbaycan Banqkokda keçirilən UNESCAP-ın dayanıqlı inkişafa dair 13-cü Regional Forumunda təmsil olunub.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP) tərəfindən Banqkok şəhərində keçirilən və dayanıqlı inkişafa həsr olunmuş 13-cü Regional Forum başa çatıb. İqtisadiyyat nazirinin müşaviri Hüseyn Hüseynov forumun sədr müavini qismində ölkəmizi təmsil edib.




Forumun açılış mərasimində çıxış edən H.Hüseynov Azərbaycanın dayanıqlı inkişaf istiqamətində əldə etdiyi nailiyyətlər, həyata keçirilən struktur və institusional islahatlar barədə məlumat verib. Ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) milli prioritetlərlə uzlaşdırılaraq sistemli şəkildə icra olunduğu diqqətə çatdırılıb.

Azərbaycanın sədrliyi ilə keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması üzrə regional tərəqqinin və imkanların nəzərdən keçirilməsi" adlı sessiyada Asiya və Sakit okean regionunda DİM-lər üzrə əldə olunan nəticələr təhlil edilib. BMT sisteminin regional səviyyədə fəaliyyəti və DİM-lərin icrası üzrə mövcud çağırışlar ətrafında müzakirələr aparılıb.

Forum çərçivəsində Azərbaycanın rəhbərliyi ilə "Yekun hesabatlılıq, nümayəndə heyətlərinin səlahiyyətlərinin nəzərdən keçirilməsi, məruzə sessiyaları və ümumi öhdəliklərin müzakirəsi" üzrə plenar müzakirələr keçirilib.

9-cu DİM (Sənaye, innovasiya və infrastruktur) üzrə " dəyirmi masa"da dövlət qurumları, özəl sektor, vətəndaş cəmiyyəti və akademik dairələrin iştirakı ilə keçirilən müzakirələrin nəticələri ümumi plenar iclasa təqdim edilib.

Tədbirdə 40-dan çox ölkədən 1200-dən çox dövlət rəsmisi, beynəlxalq təşkilat, özəl sektor və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər. Forumda təmiz su və sanitariya xidmətlərinə çıxışın artırılması, əlçatan və təmiz enerji, sənaye, innovasiya və infrastrukturun inkişafı, eləcə də inklüziv, təhlükəsiz və dayanıqlı şəhərlərin təşviqi ilə bağlı Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, əldə olunan irəliləyiş və regional əməkdaşlıq imkanları müzakirə olunub. Həmçinin BMT-nin İnkişaf üçün IV Beynəlxalq Maliyyələşdirmə Konfransının nəticələri müzakirə edilib.

# İQTİSADİYYAT

## Azərbaycan-Efiopiya: başlanan əməkdaşlıq geniş tərəfdaşlığa yol açır

**Prezident İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana səfəri zamanı ali qonaqla istər təkbətək, istərsə də geniş tərkibdə görüşlərində iki ölkə arasında tərəfdaşlığın bir çox vacib sahəsi əhatə olundu. Efiopiya uğurla inkişaf edən ölkədir, o cümlədən iqtisadiyyatı getdikcə artır. Bu səbəbdən iqtisadi sahələrdə, məsələn, energetika, kənd təsərrüfatı sahələrində əlaqələri genişləndirmək maraq doğurur.**





Əvvəla xatırladaq ki, Efiopiya Şərqi Afrikada yerləşir. Bu, dənizə çıxışı olmayan ölkələrdən biridir. Şimaldan Eritreya, şimal-şərqdən Cibuti və tanınmayan Somalilend, şərqdən Somali, cənubdan Keniya, qərbdən Cənubi Sudan, şimal-qərbdən isə Sudanla həmsərhəddir. Paytaxtı və ən böyük şəhəri Əddis-Əbəbədir. Ölkələrimiz arasında diplomatik əlaqələr 1992-ci il noyabr ayının 2-də qurulub.

Efiopiya aqrar ölkədir. Ərazisinin 11 faizi becərilir, 20 faizini çəmən və otlaqlar, 13,3 faizini meşələr tutur. Əkinçilik kənd təsərrüfatının başlıca sahəsidir. Ölkənin şimalında dincə qoyulan əkinçilik, digər rayonlarında isə tala əkinçiliyi yayılıb. İxrac bitkiləri arasında Harar, Kefa və Sidamo rayonlarının plantasiyalarında becərilən, həmçinin şimal və cənubunda dağlarda yabanı halda bitən qəhvə mühüm əhəmiyyət kəsb edir. Plantasiya təsərrüfatları qəhvə yığımının cüzi hissəsini təmin etsə də, onlarda daha bahalı sortlar yetişdirilir. Ərzaq bitkiləri darı, həmçinin arpa, qarğıdalı, buğda, paxlalılardır. Texniki bitkilər arasında şəkər qamışı əsas yer tutur. Yağlı bitkilər (noxud, küncüt, gənəgərçək və s.), pambıq, tütün də becərilir. Ölkədə həmçinin heyvandarlıq inkişaf edib.

Efiopiyanın sənayesində toxuculuq və dəri-ayaqqabı məmulatı istehsal edilir. Sement, metallurgiya, ağac, metal və neft emalı, maşınqayırma müəssisələri fəaliyyət göstərir. Burada eləcə də kustar istehsal inkişaf edib. Toxuculuq, dəri, sümük, ağac və s. üzərində işləmə geniş yayılıb. Əsas mərkəzlər Əddis-Əbəbə, Dıre-Dauadır.

Qəhvə, dəri, xəz, heyvandarlıq məhsulları, toxum yağları Efiopiyanın ixrac etdiyi başlısa məhsullardır. Əsas idxal isə neft və kimya məhsulları, dərman preparatları, maşınqayırma avadanlıqlarıdır. Efiopiya İsveçrə, Çin, ABŞ, Niderland, Səudiyyə Ərəbistanı ilə idxal-ixrac əməliyyatları aparır.

Azərbaycan-Efiopiya iqtisadi əməkdaşlığının tarixi hələ ki, qısadır. Bunu Efiopiyanın Baş naziri Abiy Əhməd Əli də ölkəmizdə səfərdə olarkən qeyd edib və perspektivlər barədə danışıb: "Gözəl ölkənizlə münasibətlərimiz, qeyd etdiyiniz kimi, hələ, sadəcə, başlayır. Bununla belə, biz bu münasibətlərin strukturlaşmış, əməli və aydın nəticələrə yönəlmiş olmasını istəyirik. İki ölkə arasında çoxlu ortaq maraqlar var. İkimiz arasında, həmçinin çox uzlaşma mövcuddur. İndicə başladığımızla yanaşı, ümid edirəm ki, növbəti bir neçə ildə bizim birlikdə sərmayə yatıracağımız vacib sahələr olacaq və beləliklə, hər iki ölkə üçün fərq yaradacağıq".

Qeyd edək ki, keçən il fevralın 16-da Əddis-Əbəbədə Efiopiya İnvestisiya Holdinqi (EİH) ilə Azərbaycan İnvestisiya Holdinqi (AİH) arasında strateji əməkdaşlığın təşviqi məqsədilə Anlaşma Memorandumu imzalanıb. Bu sənəd tərəflər arasında bilik və təcrübə, eləcə də texnologiya mübadiləsi və birgə investisiya təşəbbüsləri kimi əsas sahələrdə əməkdaşlıq üçün çərçivə yaratmağı hədəfləyir.

İmzalanma mərasimindən sonra tərəfdaşlığın əhəmiyyəti vurğulanıb, Anlaşma Memorandumunun Efiopiya və Azərbaycan arasında iqtisadi əlaqələri gücləndirmək yolunda mühüm addım olduğu bildirilib. Qeyd olunub ki, bu, investisiya idarəçiliyi sahəsində qarşılıqlı təcrübədən istifadə etməklə, dayanıqlı iqtisadi artımı dəstəkləyən sahələrdə səmərəli əməkdaşlıq üçün zəmin yaradacaq. Bu əməkdaşlıq bilik transferi, texnoloji nailiyyətlər və dövlət müəssisələrinin fəaliyyətini gücləndirəcək birgə təşəbbüslər üçün yeni imkanlar açacaq.

Anlaşma Memorandumunun imzalanması hər iki qurumun iqtisadi transformasiyanı təşviq etmək, dövlət müəssisələrinin fəaliyyətini optimallaşdırmaq və qarşılıqlı maraq doğuran digər sahələrdə yeni investisiya imkanlarını üzə çıxarmaq səylərinin möhkəmləndirilməsi məqsədini daşıyır.

Ötən il noyabrın 25-də isə ölkənin paytaxtı Əddis-Əbəbədə Afrika qitəsində ilk dəfə olaraq Azərbaycan iş adamlarının iştirakı ilə I Azərbaycan-Efiopiya Biznes-Forumu keçirilib. 100-dən çox iştirakçının qatıldığı forum Afrika-Azərbaycan Ticarət Əlaqələri Təşkilatı (Africa-Azerbaijan Co-operation - AFAZ) təşkilatçılığı və Azərbaycan Respublikasının Efiopiyadakı səfirliyinin dəstəyi ilə reallaşıb.

Bu dəfə Bakıda da əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb. Bunların sırasında "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Efiopiya İnvestisiya Komissiyası arasında Anlaşma Memorandumu" da var.

Prezident İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə söhbəti zamanı iki ölkə arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olunub və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub. Eləcə də kənd təsərrüfatı, mədən sənayesi, enerji, energetika, rəqəmsal transformasiya, süni intellekt sahələrində birgə kadr hazırlığı, turizm, mədəniyyət, təhsil, o cümlədən tələbə mübadiləsinin həyata keçirilməsi üzrə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.Eyni zamanda Efiopiyada "ASAN xidmət" konsepsiyası əsasında mərkəzlərin uğurla fəaliyyət göstərməsi, həmçinin DOST təcrübəsinin tətbiqi ilə bağlı müzakirələrin aparıldığı bildirilib.

"Əminəm ki, bu səfər bizim gələcək uğurlu əməkdaşlığımız üçün vacib amil olacaq və ölkələrimizə, xalqlarımıza çox yaxşı nəticələr verəcək", - deyə dövlətimizin başçısı əlaqələrin genişlənəcəyinə və möhkəmlənəcəyinə inamını ifadə edib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Moldova ilə təbii qaza gözlənilən tələbatla bağlı fikir mübadiləsi aparılıb

**"Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası ərəfəsində energetika naziri Pərviz Şahbazov Moldovanın energetika naziri Dorin Junqetu və "TAP AG" şirkətinin idarəedici direktoru Luka Skiepatti ilə görüşlər keçirib.**

Energetika Nazirliyindən bildirilib ki, Moldovanın energetika naziri Dorin Junqetu ilə görüşdə təbii qaza gözlənilən tələbat və qaz layihələrinin inkişafını dəstəkləyən praqmatik siyasətin vacibliyi ilə bağlı fikir mübadiləsi aparılıb. Moldovanın qaz bazarının liberallaşdırılması, həmçinin külək-elektrik stansiyaları və enerji saxlama obyektləri üçün tenderin keçirilməsi çərçivəsində əməkdaşlıq imkanları dəyərləndirilib.

"TAP AG" şirkətinin idarəedici direktoru Luka Skiepatti ilə görüşdə Avropa və Balkanların enerji şəbəkələrinə inteqrasiya olunmuş strateji infrastruktur layihəsi olan TAP-ın etibarlı enerji təchizatında mühüm rolu qeyd olunub. 2026-cı ilin əvvəlində TAP-ın genişləndirilməsinin birinci mərhələsinin tamamlanması çərçivəsində boru kəmərinin ötürücülük gücünün əlavə olaraq 1,2 milyard artırılması yüksək qiymətləndirilib. Bildirilib ki, hazırda təbii qaz bazarının inkişafı və tələbatdakı dəyişikliklər dəyərləndirilir, eləcə də növbəti genişlənmə üçün bazar testinin məcburi mərhələsinin gələn ilin birinci rübündə başlanması planlaşdırılır.

Qeyd edək ki, indiyə qədər TAP vasitəsilə Avropaya 56 milyard kubmetrdən çox təbii qaz nəql olunub.

## İlin ilk ayında sənayenin qeyri-neft-qaz sektorunda 8,7 faiz artım qeydə alınıb

**Azərbaycanda qeyri-neft sektorunun inkişafında əldə edilən uğurların bir çox səbəbləri var. Onlardan biri dövlət tərəfindən bu sahəyə yerli və xarici investorları cəlb etmək üçün güzəştlər edilməsidir. Bunun sayəsində artıq neçə ildir qeyri-neft sektoruna sərmayə qoyuluşunda dinamik artım müşahidə olunur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar ayında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərərn fərdi sahibkarlar tərəfindən ölkə üzrə 4,7 milyard manatlıq və ya ötən ilin müvafiq ayı ilə müqayisədə 2,5 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Məhsul istehsalı neft-qaz sektorunda 1,4, qeyri-neft-qaz sektorunda 8,7 faiz artmışdır. İlin ilk ayında sənaye məhsullarının 56,4 faizi mədənçıxarma, 35,2 faizi emal, 7,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Bu dövrdə sənayedə qeyri-dövlət sektorunun payı 80,3 faiz olmuşdur. Ümumi istehsalın 85,9 faizi sənaye məhsullarının istehsalı, 14,1 faizi sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaranmışdır.

Yanvarda mədənçıxarma sənayesi üzrə istehsalın ümumi dəyəri 2,7 milyard manat olmaqla əvvəlki ilin müvafiq ayına nisbətən 2,4 faiz artmışdır. Ay ərzində sahənin əsas məhsulu əmtəəlik neft hasilatı 2,2 milyon ton, əmtəəlik təbii qaz hasilatı 3,4 milyard kubmetr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz azalmış, əmtəəlik qaz hasilatı 8,7 faiz artmışdır.

Emal sənayesi üzrə yanvar ayında 1 milyard 661,7 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Əvvəlki ilin ilk ayı ilə müqayisədə tütün məmulatlarının istehsalı 37,4 faiz artsa da, bir sıra qida məhsulları istehsalında azalma müşahidə edilmişdir. Əvəzində bitki yağları istehsalında 15,6 faiz artım qeydə alınmışdır. Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 141,9 milyon manatlıq məhsul istehsal edilmişdir. Əczaçılıq məhsullarının istehsalında 2,8 dəfə artım olmuşdur.

Tikinti materiallarının istehsalı sahəsində müşahidə edilən yüksək dinamika işğaldan azad edilən ərazilərdə aparılan nəhəng bərpa-quruculuq işləri ilə bağlıdır. Cari ilin yanvar ayında sözügedən sahədə ümumi dəyəri 117,8 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 39,3 faiz artım deməkdir.

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrinin ölkə sənayesindəki çəkisi çox olmasa da, burada artım dinamikası yüksəkdir. Məsələn, yanvarda elektrik avadanlıqlarının istehsalında 53,2 faiz, elektrik avadanlıqlarının istehsalı sahəsi üzrə elektrik tənzimləyici cihazların istehsalında 2,1 dəfə artım müşahidə olunmuşdur.

İlin ilk ayında həmçinin 38,2 milyon manatlıq maşın və avadanlıqlar istehsal edilmişdir. Ötən ilin ilk ayı ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,1 dəfə artmış, maşın və avadanlıq istehsalı 10,8 faiz azalmışdır. Həmin ay ərzində 402 və ya ötən ilin eyni dövrü ilə müqayisədə 167 ədəd çox minik avtomobili istehsal olunmuşdur. Ay ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə yük avtomobillərinin istehsalı isə 7 dəfə artmışdır.




Statistik rəqəmlərdən görünür ki, cari ilin ilk ayında ölkədə qeyri-neft-qaz sektorunda ümumi artım dinamikası əsasən davam edir. Bir sıra məhsullar üzrə azalmanın müşahidə edilməsi isə ilin əvvəli olması ilə bağlıdır. Təbii ki, aylar bir-birini əvəz etdikcə həmin sahələr üzrə də istehsalda artım bərpa olunacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Bəzi OPEC+ ölkələri razılığa gəliblər

**8 OPEC+ ölkəsi - Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qazaxıstan, Əlcəzair və Omanın nümayəndələri qlobal bazar şərtlərini və perspektivlərini nəzərdən keçirmək üçün videokonfrans formatında görüş keçiriblər.**



AZƏRTAC OPEC-ə istinadla xəbər verir ki, görüşdə sabit qlobal iqtisadi perspektivlər və mövcud sağlam bazar fundamentalları nəzərə alınmaqla, 8 ölkə 2023-cü ilin aprel ayında razılığa gəlinən istehsalın gündəlik 1,65 milyon barelinin azaldılmasına dair könüllü düzəlişləri bərpa etmək barədə qərar verib və sutkalıq neft hasilatının 206 min barel artırılması ilə bağlı anlaşıblar. Bu tədbirin iştirakçı ölkələrə kompensasiyalarını sürətləndirmək üçün fürsət yaradacağı bildirilib. Qərar cari ilin aprel ayında qüvvəyə minəcək.

Vurğulanıb ki, Səudiyyə Ərəbistanı, Rusiya, İraq, BƏƏ, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman hasilatı tənzimləyir və bazar sabitliyinə sadiqliyini təsdiqləyir. Gündəlik 1,65 milyon barel neft dəyişən bazar şərtlərinə uyğun olaraq, qismən və ya tam şəkildə bazara geri qaytarıla bilər. Ölkələr bazar şərtlərini yaxından izləməyə və qiymətləndirməyə davam edəcəklər.

## BP və SOCAR Xəzər hövzəsində seysmik və quyu tədqiqatları sahəsində əməkdaşlıq edəcəklər

**BP və SOCAR Xəzər hövzəsində seysmik və quyu tədqiqatları sahəsində əməkdaşlıq etmək niyyətində olduqlarını bildirərək bu dənizin Azərbaycan sektorunun geoloji xüsusiyyətləri barədə ətraflı məlumat əldə edilməsini daha da genişləndirmək məqsədilə bir saziş imzaladılar.**

Hövzədə yeraltı tədqiqat işlərini birgə irəli aparmaq istiqamətində atılan mühüm bir addım kimi dəyərləndirilən bu saziş şirkətlər arasında aparılmış geniş texniki müzakirələrin və danışıqların nəticəsidir. Sazişə əsasən, BP və SOCAR ilk dəfə olaraq müxtəlif dövrlərə aid mövcud 2D və psevdo-3D seysmik məlumat toplularını tutuşdurub birləşdirərək regional psevdo-3D seysmik məlumatlar həcmi yaratmaq üçün innovativ texnologiyaların tətbiqi ilə seysmik tədqiqat aparacaqlar. Bu, Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən ilk belə layihə olacaq.

Tədqiqat nəticəsində əldə olunacaq psevdo-3D seysmik məlumatlar həcminin ayrı-ayrı 2D seysmik profillərdən asılılığı azaltmaqla regional geoloji interpretasiyanı əhəmiyyətli dərəcədə yaxşılaşdıracağı gözlənilir. Bu, hövzə miqyasında 3D xəritələr tərtib etməyə imkan verəcək, geoloji kəşfiyyat potensialının daha yaxşı başa düşülməsini təmin edəcək və Xəzər hövzəsində gələcəkdə kəşfiyyat aparılacaq perspektivli strukturlarla bağlı riskləri azaltmağa kömək göstərəcək.

Əməkdaşlıq çərçivəsində SOCAR tərəfindən BP-yə 2D seysmik profillər, quyu məlumatları və geoloji nümunələr təqdim olunacaq. BP isə öz növbəsində seysmik məlumatların emalı və nümunələrin laboratoriya analizlərini təmin edəcək. Psevdo-3D seysmik məlumatlar qabaqcıl texniki imkanlara və bu texnologiyanın tətbiqi sahəsində təsdiqlənmiş uğurlu təcrübəsi olan podratçı tərəfindən təmin ediləcək.

SOCAR-ın vitse-prezidenti Arzu Cavadova bildirib: "Bu saziş SOCAR ilə BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından mühüm mərhələdir. SOCAR-ın geniş geoloji bilik və məlumat bazasının BP-nin seysmik məlumatlarının emalı mövzusunda qabaqcıl imkanları ilə birləşdirilməsi vasitəsilə biz hövzə miqyasında biliklərimizi daha da genişləndirməyə imkan yaradan, innovativ texnologiyaların tətbiqini nəzərdə tutan tədqiqat layihəsinə start veririk". Mövcud seysmik məlumatların inteqrasiyası əsasında regional psevdo-3D seysmik həcmin yaradılması Xəzər hövzəsinin kəşfiyyat potensialı barədə daha dərin təsəvvür formalaşdıracaq, geoloji interpretasiyanı təkmilləşdirəcək və Azərbaycanın uzunmüddətli dəniz kəşfiyyatı strategiyasına dəstək göstərəcək".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda geologiya və işlənmə üzrə vitse-prezidenti Dən Sparks deyib: "Bu, olduqca vacib birgə təşəbbüsdür və hər iki şirkətə unikal geoloji xüsusiyyətləri ilə seçilən Xəzər hövzəsi haqqında daha geniş bilik formalaşdırmağa imkan verəcək. Əməkdaşlığımız SOCAR-ın hövzə barədə dərin biliklərini və bp-nin qabaqcıl seysmik texnologiyalardan istifadə edərək hövzə və perspektivli strukturlar haqqında məlumatların inteqrasiya edilməsi sahəsində güclü qlobal bacarıqlarını bir araya gətirir. BP-nin dünya üzrə irimiqyaslı seysmik layihələr həyata keçirmək təcrübəsinə əsaslanaraq, bu geniş əhatəli məlumatlar toplusunu yaratmaq və təhlil etmək üçün innovativ metodlar, o cümlədən maşın öyrənməsi və yüksək performanslı hesablama tətbiq edəcəyik. İnanırıq ki, bu tərəfdaşlıq yeni biliklər əldə etməyimizə, hövzənin xüsusiyyətlərini daha yaxşı başa düşməyimizə yol açacaq və Azərbaycanın Xəzərdə geoloji kəşfiyyatla bağlı gələcək planlarına dəstək verəcək".



***"Azərbaycan"***

## "Azərbaycan-İtaliya biznes və investisiya əlaqələri" mövzusunda tədbir keçirilib

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) uzun müddətdir İtaliyanın özəl səhmlərin idarə olunması üzrə aparıcı şirkətlərindən olan "Fondo Strategico Italiano" (FSI) ilə əməkdaşlıq edir.**

Şirkətin təşəbbüsü ilə müxtəlif sektorları təmsil edən, eləcə də Azərbaycan bazarında əməkdaşlıq imkanlarını dəyərləndirən italyan şirkətlərinin nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində "Azərbaycan-İtaliya biznes və investisiya əlaqələri" mövzusunda tədbir keçirilib. ARDNF-nin inzibati binasında baş tutmuş tədbir iki ölkə arasında strateji investisiya tərəfdaşlığının dərinləşdirilməsi, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birbaşa işgüzar əlaqələrin qurulması və dayanıqlı iqtisadi əməkdaşlıq platformasının yaradılması məqsədi daşıyıb.

***"Azərbaycan"***





# Mədəniyyət





## Bahar gəlir, yaz gəlir...

# Od çərşənbəsi işıq, yenilənmə, güc, birlik və yüksəliş rəmzidir

**Şərq, o cümlədən türk xalqlarının mifoloji-tarixi yaddaş kodunu bu günümüzə yetirən Novruz bayramı ərəfəsində boz aya daxil olan çərşənbələrin ikincisi Od çərşənbəsidir. Azərbaycanın müxtəlif bölgələrində "Üskü çərşənbə", "Atəş çərşənbə", "Xızır çərşənbə", "Üskü gecəsi", "Addı çərşənbə" kimi də tanınan bu əlamətdar günün əsas rəmzi - Od yaradılışın dörd sakral ünsüründən biridir.**

Odun, atəşin yaranma tarixi çox qədimdir. Hələ ibtidai dövrlərdə insanlar şimşək çaxanda, vulkan püskürəndə, yaxud üzvi maddələrin öz-özünə yanması nəticəsində əldə etdikləri oddan gündəlik həyatda istifadə etmiş, odu sönməkdən qorumuşlar. Bu, ibtidai insanı digər canlılardan fərqləndirən əsas faktorlardan biri olmuş, daha sonralar nitq və danışıq mədəniyyəti formalaşmışdır. Tarixi qaynaqlara görə, "insanın təbiət üzərində ilk qələbəsi olan od onun şüurunda və həyatında böyük dəyişikliklər yaratmış, artıq Aşel mədəniyyəti dövründə süni odalma məişətə daxil olmuşdur".

Dünya xalqlarının mifoloji təfəkküründə odun sakrallığı ilə bağlı çox sayda süjetlər yaranmışdır. Qədim yunan və Roma mədəniyyətində od həyatın və ilahi qüvvələrin gücünü ifadə edən faktor olub. Roma inanclarında odun daimi yanması ailənin və cəmiyyətin təhlükəsizlik prinsiplərinin əsasını təşkil edib. Yunan mifologiyasında Prometeyin odu oğurlamasını əks etdirən mətnlər xüsusi yer tutur. Hind mədəniyyətində od paklıq, yenidən doğuş və özünütapma ilə əlaqələndirilir. Yapon mədəniyyətində isə od təbiət güclərini təmsil etməklə yanaşı, arınma, yenilənmə və müdafiə kimi qəbul olunur.



İslamda oda münasibət bir qədər fərqlidir, həm müsbət, həm də mənfi təzahürləri diqqəti cəlb edir. Od-işıq uca Yaradanın nurunun və hikmətinin rəmzidir. "Qurani-Kərim"də deyilir ki, "Allah göylərin və yerin nurudur" (Nur surəsi, ayə 35). Bəzi "Quran" ayələrində və dini qaynaqlarda od həm də qəzəb və əzab mənbəyi kimi göstərilir. Türk xalqlarının mifoloji ənənəsində od sakrallığı təmsil etdiyi üçün həm qoruyucu, həm də şəfaverici bir varlıq olaraq qəbul edilir. Mifik düşüncədə odla bağlı süjetlər folklora da transformasiya olunmuşdur.

Türk xalqlarının mifik təsəvvürlərində, Azərbaycan folklorunda Od, Atəş və Günəşin sakrallığını, insan həyatındakı əhəmiyyətini səciyyələndirən ayin, etiqad, mərasimlər sistemi yaranmışdır. Təsadüfi deyildir ki, oda, Günəşə inamla bağlı Ulgen tanrısına müraciətlər olunmuş və ona sitayiş edilmişdir.

Sübh çağında insanlar Günəşi qarşılamağa gedər, hündür bir təpənin üstündə tonqallar qalayar, tonqaldan məşəl götürüb evindəki ocağa od salar, möhtəşəm şadlıq məclisləri təşkil edib mərasim icra edərdilər. "Qodu" mifoloji görüşlərdə Günəş tanrısının adını ifadə etdiyi üçün yağışın kəsilməsi və Günəşi çağırmaqla bağlı yaranmış "Qodu-Qodu" mərasimi icra edilərdi. Mifik təsəvvürlərdə antropomorfik görüşləri ifadə edən nümunələr də vardır ki, bunlar Günəşə inamla bağlı motivləri qabarıq şəkildə səciyyələndirir, məsələn, "Gün çıx, Gün çıx" mətnində keçəl qız yağışın, buludun, saçlı qız isə Günəşin rəmzidir.

Od çərşənbəsində icra olunan ən arxaik mərasimlərdən biri "Günəşə qurban kəsmək" mərasimidir. İnsanlar sübh vaxtı qırmızı kəhər atı Günəşə qurban aparardılar. Hündür təpənin üstündə olan at gün doğanda Günəşin şərəfinə qurban kəsilərdi. İnama görə, əgər kəhər at Günəşə qurban kəsilərsə, Günəş Yer üzərində olan insanlara xoşbəxt həyat bəxş edər. "Günəşə qurban kəsmək" mərasimi zamanı kəhər atın kəsilməsi ilə bağlı Herodotun "Tarix" əsərində göstərilir ki, "Günəş səmada çox sürətlə hərəkət edir, qırmızı kəhər at isə Yer üzərində heyvanlar arasında sürətli qaçanlardan biridir". Adıçəkilən mərasim Kəlbəcər qayaüstü rəsmlərində də öz əksini tapmışdır. Mifik təsəvvürlərə görə, insanlar Günəşi, odu, atəşi nə qədər çox əzizləsələr, onun müqəddəsliyinə inansalar, o zaman Günəş Yer üzərində təbiəti, suyu, torpağı tez isidər və onlara bolluq-bərəkət, firavanlıq bəxş edər.

Od çərşənbəsində inama görə, Xızır göydən yerə enib odla, atəşlə qovuşur və hər yerə istilik gətirir, ona "Xızır-Xızır", yaxud "XızırhaXızır" deyiblər. Çilədən, əziyyətdən qurtulub rahat həyata çatmaq arzusu ilə hər evdə "Xızır atəşi" yandırılardı ki, bu od kimi paklanmaq, yenilənmək inamına bağlı idi. Od çərşənbəsində "Pülənbəri" mərasimi ("Yanar körpü", yaxud "Nur körpüsü") keçirilərdi. Axşamüstü hündür təpədə kötükdən, yaxud quru ağacdan körpü hazırlanar, ona od vurandan sonra kiçikdən böyüyə qədər hamını, hətta mal-qaranı da həmin "yanar körpü"nün altından keçirərdilər. Orta əsrlərdə Azərbaycana gələn Avropa səyyahları Adam Oleari,Yan Streysin məlumatlarında da Şamaxı ərazisində "Puli əmbəri" adlı daş körpünün mövcudluğu təsdiqlənmişdir.

Od çərşənbəsində keçirilən qədim mərasimlərdən biri də "Təkə" mərasimidir. Mərasimdə əsasən cavanlar iştirak edər, quru ağacdan təkənin müqəvvasını düzəldib onu bəzəyərdilər, təkə ilə birlikdə çərşənbə tonqalının ətrafında nəğmələr oxuyar, rəqs edərdilər. Sonra isə təkəni götürüb bütün kəndi gəzər və "qışda yeyib şaxta təkəm, olub biz-biz tükləri təkəm, təkəmə arxalıq verin, eviniz olsun abadan" deyib mərasimi yekunlaşdırırdılar. Təkəçilərə çərşənbə payı da verilərdi. "Təkə" mərasiminin keçirilməsi heç də təsadüfi olmayıb. Türk xalqlarının mifik təfəkküründə təkə həm tayfa adlarında, həm də coğrafi məkan adlarında öz əksini tapmışdır. Məsələn, Təkəli tayfası, Keçili kəndi və s. Hətta şumerlər də ona sitayiş etmişlər. Gəmiqaya rəsmlərində onlar həyat ağacı ilə birlikdə təsvir edilmişdir ki, bu da məhsuldarlıq, bolluq, bərəkət rəmzini əks etdirir.

Xalq arasında bəzi rituallar icra edilərdi ki, onların bir qismi bu gün də aktualdır. Od çərşənbəsində axşamüstü tonqallar qalanar, böyükdən-kiçiyə hamı "ağırlığım odda qalsın" deyərək onun üzərindən atlanardı. İnanca görə, körpə uşaqları da tonqalın üstündən keçirmək lazımdır ki, çillədə qalmasınlar.

Çərşənbədə inama görə, tonqala bar verən ağacın hissələrini atmaq düzgün sayılmır. Tonqalda daha çox kol-kos, quru odun parçası və qaratikan yandırılır. Tonqala adətən üzərlik də atılır ki, onun tüstüsü bəd nəzərləri məhv etsin. Tonqalın uzun müddət yanması xeyrə yozulur, onu yarımçıq söndürmək və yanıb külə döndükdən sonra dağıtmaq qadağandır. Ətrafına üç dəfə cızıq çəkilərdi ki, bu da evdən, ailədən ruzi-bərəkətin əskik olmaması inancına söykənirdi. Çərşənbə tonqalının külü axar suya tökülməlidir.

Zərdüştilik yaranandan sonra Günəş, Od və Atəşin sakrallığı qorunub saxlanmış, atəşin bir neçə növü ilə bağlı mərasimlər keçirilmişdir. Zərdüştilər istiliyin ilk mənbəyini ağacın gövdəsində olan istiliyi hesab edir, onun şərəfinə "Şəhrivər", insan bədənində və təbiətdəki istiliyin şərəfinə "Səddə", Günəş istiliyilə bağlı "Azərcan", ocaqlarda, atəşgahlarda olan istiliyin şərəfinə "Çırağan" mərasimlərini qeyd etmişlər.

Azərbaycanın müxtəlif bölgələrində Od çərşənbəsində süfrəyə paxlaplov və quru meyvələrdən ibarət çərşənbə xonçası qoyulur. Günəşin, atəşin rəmzi kimi şamlar, çıraqlar yandırılır. Evin künclərinə də şamlar, çıraqlar, çıraqların yanına da güzgülər qoyulardı ki, çırağın işığı daha da artsın, bayram əhvali-ruhiyyəsi çox hiss edilsin. Bu ayin "üskübəzəmə" adlanır. Bu ayini çox zaman ocaqda qalıb, nəsli, soyu davam etdirən sonbeşik icra edərdi.

Xalq arasında oda salavat verilmiş, insanın yaşadığı yerə "ocaq" deyilmişdir. Folklorumuzda odla bağlı "Odu közərtmək" ritualı geniş yayılmışdır. Bu ayinə görə, yağışlı, soyuq, çovğunlu havalarda belə od qorunur və onun sönməsinə icazə verilmir. Odun sakral mahiyyəti folklor mətnlərində də qorunub saxlanmışdır:

*Düşən yeri...*
*Atlanıb düşən yeri*
*Göz yaşım oda dönüb,*
*Yandırır düşən yeri.*

* * *

*Suda yandı...*
*Od yandı, su da yandı.*
*Dərdimi suya dedim,*
*Od tutdu, o da yandı...*

* * *

*Od imandandır.*
*Od küldə gizlənər.*
*Oda yanmayan balasına da yanmaz.*
*Od ocaqda yanar.*
*Od adamı həm qızdırır, həm də yandırır.*
*Oda dərdini deyən xeyir aparar.*

*Od çərşənbəsində ocağı boş qoymazlar.*
*Od çərşənbəsində ocaqdan od verməzlər.*
*Ocağın külün dağıtmazlar.*

*Ocağı şər vaxtı dağıtmazlar.*
*Od çərşənbəsində ağlayan ağacı kəsən sonsuz qalar.*
*Ocaq istisini sevən od-ocaqlı olar.*
*Ocaq yananda səslənirsə, demək, kimsə sözünü danışır.*
*Od hisli olarsa, uzaqdan qonağın gələcək deyərlər.*
*Ocaqda kül titrəyəndə Od xeyrə oynayır deyərlər.*
*Gün doğanda ziyarətə yola düşərlər.*
*Gün düşən yerdə xəstəlik olmaz.*
*Gün doğanda doğulan uşaq cəngavər olar.*

*Od haqqı!*
*Ocaq haqqı!*
*İşıqlığa çıxasan!*
*Gün haqqı!*
*Ocağın bərəkətli olsun!*

Od kultu Günəşin, həyatın, yenilənmənin, yenilməzliyin əsas atributlarından olduğu üçün dünyanın çoxsaylı xalqlarının mifik inam və etiqadlarında xüsusi yer tutur. Od-ocaq kultunun türkdilli xalqların mifoloji-dini dünyagörüşündə yeri isə yaradılışın dörd sakral varlığından biri kimi, ritual, bayram və mərasim sistemində əhəmiyyətini bir daha təsdiqləyir.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru***
***(Foto İlham BABAYEVİNDİR)***

## 2026 - "Şəhərsalma və Memarlıq İli"

# Bakı - tarixlə gələcəyin görüşdüyü məkan



**Xəzərin mavi sularının sahilində mirvari kimi parlayan Bakı yalnız coğrafi məkan deyil, zamanın qatlarını öz sinəsində yaşadan daş tarixdir. Gözəl və yaraşıqlı küçələri ilə addımladıqca adam qəribə hisslər keçirir. Sanki insan əsrlər arasında yol gedir - bir tərəfdə qədim Şərqin isti nəfəsi, digər tərəfdə Avropa memarlığının təkrarsız nümunələri.**

Qədim qala divarları ilə əhatələnmiş İçərişəhər, əzəməti ilə seçilən Qız qalası, daş yaddaşın möhtəşəm nümunəsi olan Şirvanşahlar sarayı... Bunlar, sadəcə, memarlıq abidələri deyil, xalqımızın milli yaddaşının daşlaşmış salnaməsidir. Mübaliğəsiz deyə bilərik ki, Bakı həm qədim bir muzeyi xatırladır, həm də yaşayan bir sənət əsərinə bənzəyir. Burada hər bina bir tarix, hər daş bir xatirə, hər küçə bir dəyər dastanıdır. Şərqlə Qərbin estetik harmoniyasını özündə birləşdirən bu nadir şəhər Azərbaycan xalqının ruhunu, irsini və kimliyini qoruyan müqəddəs məkan kimi zamanın sınağından alnıaçıq çıxaraq bu gün də öz möhtəşəmliyini qoruyur.

Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması düşünülmüş, zamanın çağırışlarına cavab verən qərardır. Bu, yalnız bir təqvim ili ilə məhdudlaşan qərar deyil, həm də ölkənin şəhərsalma siyasətində yeni mərhələnin - sistemli, elmi əsaslara söykənən və beynəlxalq standartlara inteqrasiya olunan inkişaf modelinin başlanğıcıdır.

Son illər paytaxtda və regionlarda genişmiqyaslı infrastruktur və quruculuq layihələri həyata keçirilir. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə şəhərlərin və kəndlərin yenidən salınması müasir memarlıq tariximizdə nadir hadisələrdəndir. Görülən işlər ölkəmizin dayanıqlı inkişaf modelinin təqdimatı olmaqla bəzi zərurətləri ortaya çıxarır. Ekoloji balansı qoruyan, enerjiyə qənaət edən "ağıllı idarəetmə sistemləri", rəqəmsal texnologiyalar yeni şəhər nümunəsini yaradır.

Sözsüz ki, "Şəhərsalma və Memarlıq İli" bu çağırışların vahid proqram çərçivəsində reallaşdırılmasına xidmət edir. Diqqət etsək görərik ki, son illər Bakının memarlıq siması köklü şəkildə dəyişib. Bir vaxtlar sənaye tullantıları ilə tanınan Qara şəhər bu gün Ağ şəhər olaraq müasir yaşayış və biznes məkanına çevrilib. Bulvarın genişləndirilməsi, yeni parkların salınması, ictimai istirahət zonalarının yaradılması paytaxtın inkişaf fəlsəfəsində insan faktorunun önə çəkildiyini göstərir.

Bu gün Bakının müasir simasını formalaşdıran memarlıq nümunələri artıq qlobal tanıtım elementinə çevrilib. Qürurla qeyd edə bilərik ki, şəhərin rəmzinə çevrilmiş müasir memarlıq ansamblı - "Alov qüllələri", dünya memarlıq xəritəsində xüsusi yer tutan, forması ilə seçilən Heydər Əliyev Mərkəzi, beynəlxalq tədbirlərin keçirildiyi əsas ünvanlardan biri Bakı Konqres Mərkəzi, qlobal miqyaslı tədbirlərə evsahibliyi edən Bakı Kristal Zalı, milli musiqi irsini müasir memarlıq dili ilə təqdim edən Beynəlxalq Muğam Mərkəzi yalnız estetik layihələr deyil, həm də Azərbaycanın modern memarlıq imicinin ifadəsidir.

Son illər paytaxtın bir sıra qədim məkanlarında aparılan yenidənqurma və əsaslı təmir işləri paytaxtın memarlıq simasına xüsusi məna və yeni nəfəs bəxş edib. Xüsusilə Ramana və Balaxanı kimi tarixi yaşayış məntəqələrində küçələrin abadlaşdırılması, fasadların bərpası, daş evlərin ilkin memarlıq üslubuna uyğun yenilənməsi qədimliklə müasirliyi uzlaşdıran nümunəvi yanaşmadır. Bu ərazilərdə görülən işlər təkcə infrastrukturun yaxşılaşdırılması deyil, həm də mədəni irsin dirçəldilməsi, tarixi yaddaşın gələcək nəsillərə ötürülməsi missiyasını daşıyır. Nəticədə Bakı yalnız göydələnlərlə deyil, öz köklərinə sədaqəti ilə də seçilən şəhər obrazı formalaşdırır. Burada hər bərpaolunan küçə keçmişlə bu gün arasında qurulan möhkəm bir körpüyə çevrilir.

Gündən-günə gözəlləşən və abadlaşan Bakı bu gün artıq təkcə tarixi irsi ilə deyil, həm də cəsarətli urban layihələri ilə dünyanın diqqətini cəlb edir. Xəzər sahilində salınan "Sea Breeze" bunun bariz nümunəsidir. Müasir seqmentlərə uyğun müxtəlif təyinatlı binalar, mükəmməl infrastruktur, geniş yaşıllıq zolaqları, sosial və əyləncə məkanları ilə bu layihə yeni nəsil şəhər həyatının modelini təqdim edir. "Sea Breeze", sadəcə, yaşayış, biznes və istirahət kompleksi deyil. Burada şəhərsalma baxımından konseptual yanaşmanın ifadəsi olaraq rahatlıq, estetika və funksionallıq vəhdət təşkil edir.

Bakıda tramvay xətlərinin bərpası təşəbbüsü isə həm ekoloji nəqliyyatın təşviqi, həm də paytaxtın tarixi nəqliyyat ənənəsinin müasir formatda dirçəldilməsidir.

Bu məqamda vacib bir faktı qeyd etmək yerinə düşər. BMT-nin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) 2026-cı ildə Bakıda keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir. Şübhəsiz ki, BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. Həmçinin 2026-cı ildə World Urban Forum 13-ün Bakıda keçirilməsi barədə qərar ölkənin artan beynəlxalq nüfuzunun və dayanıqlı şəhərsalma siyasətinin təsdiqidir. Eyni zamanda bu forum Azərbaycanın şəhərsalma təcrübəsinin beynəlxalq səviyyədə tanıdılması üçün böyük imkanlar açır. Bakı yalnız ev sahibi deyil, eyni zamanda yeni urban inkişaf ideyalarının təşəbbüskarı kimi də çıxış edir.

Azərbaycan artıq şəhərlərini, sadəcə, genişləndirmir, onları düşünərək, planlayaraq və gələcəyə hesablanmış şəkildə qurur. 2026-cı ili isə bu strateji baxışın rəsmi manifesti hesab etmək olar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Xocalıda açan badam çiçəkləri

**... O il qış Qarabağ dağlarına çox sərt gəlmişdi. Qaraqayadan əsən sazaqlı külək iliyə işləyirdi, Kətik meşəsi ağappaq qara bürünmüşdü. Qarqar çayı həmişəkindən daha sulu axırdı. Fevralın axırlarında havanın şaxtasına baxmayaraq, Xocalıda yenə də badam ağacları çiçək açmağa başlamışdı. Həyətlərdə, yolların kənarında, yamaclarda təzəcə puçurlayan çiçəklər gözə dəyirdi.**

Badam yazın müjdəçisi sayılan çiçəklərdəndir. Həm də badamın yarpaqları çıxmamış çiçəkləri açmağa başlayır. Beş ləçəkdən ibarət ağappaq çiçəklər...

Ancaq o il badam çiçəkləyə bilmədi. Çiçəklər avtomat səsindən, mərmi harayından diksindi. Yer-göy lərzəyə gəldi. Evlər, binalar, şəhər od tutub yanırdı. Hamı doğma ev-eşiyindən baş götürüb qaçdı. Laylalar yarımçıq qaldı, beşik yırğalanmadı, nəğmələr səslənmədi, dodaqlarda gülüş dondu. Ana harayı, körpə qışqırtısı, qoca iniltisi hər yeri başına götürmüşdü. Sakinlər əsir, titrəyir, onların üstünə yeriyən ölümün pəncəsindən qaçmağa, xilas olmağa çalışırdılar. Həmin il Xocalıda açan badam çiçəklərinin ləçəkləri qarın yox, qan izlərinin üstünə töküldü. Təbiət, dağ-daş, yer-göy qan ağladı...

O vaxtdan sonra Xocalıda badam çiçək açmadı. O vaxtdan sonra Xocalıya yaz gəlmədi, ağaclar puçurlamadı, meşələr yarpaqlamadı. Elə bil yaz bu yerlərdən birdəfəlik küsüb getmişdi...

Badam çiçəkləri bir də otuz ildən sonra bu torpağa qayıtdı, yaz bir də uzun ayrılıqdan sonra bu yerlərə döndü, təbiət bir də təzədən yaşıl don geydi. Xocalı yenidən doğma sakinlərin nəfəsinə qovuşdu. Yaz gələndə Qarabağın küləyi badam çiçəklərinin ətrini dağlardan aşırır, dərələrdən keçirir. O ətirdə kədər də, nisgil də, göynərti də var, qürur, inam, ümid də. Bu torpağın sinəsində şəhid qanı, havasında son dəfə ciyərlərinə çəkib havaya verdiyi şəhid nəfəsi var. Bu torpağın köksündə şəhidin sonuncu dəfə ayaq basıb keçdiyi izlər var. Bəlkə də ona görə Qaraqayanın sinəsində, Kətik meşəsində açan badam çiçəkləri ağappaq işıq saçır. Bu işıq qaranlıqdan sonra açılan səhər, ağrıdan sonra doğulan ümid, xəstəlikdən sonra yaranan sağlamlıq kimidir. Badam çiçəkləri hər tərəfə ağappaq don biçib, zəfər işığı çiləyib. Hər tərəf bu işığın altında gözəl və yaraşıqlı görünür.



Yenidən Xocalıda açan badam çiçəkləri ədalətin qayıdışı, yaddaşın bərpasıdır. Badam çiçəkləri sərt qışdan sonra yazın müjdəsini verən ümid, ömür-gün yollarına səpilən inam işığı, yaddaşımızı yaşadan xatirədir...

# "Tilov " serialının yaradıcı heyəti ilə görüş

**Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) kino zalında "Tilov" serialının yaradıcı heyəti ilə görüş keçirilib.**

Bu barədə AZƏRTAC-a AKİ-dən məlumat verilib.

Bildirilib ki, görüşdə serialın rejissoru Emil Quliyev, ssenaristləri Pərviz Həsənov, Araz Bayramov, operatoru Məhəmməd Osmanov, aktyorlar Yaqut Paşayeva, Mələk Mustafayeva və Amid Qasımov iştirak ediblər.

Serialın yaradıcı heyəti ilə tələbə və gənc kinematoqrafçılarla görüş onların bu sahə ilə bağlı maraqlarını təmin etməyə şərait yaradıb.



Edilən müzakirələr əsasında tələbələrin sualları cavablandırılıb və onlara bu sahə ətrafında istiqamət göstərilib.



# Xaqani Şirvani - 900

*İstəmirəm adımı çağırsınlar Xaqani,*
*Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani...*



● Klassik irsimiz

# Poeziyanın intibah günəşi

**Bu il böyük Azərbaycan şairi Xaqani Şirvaninin anadan olmasının 900-cü ildönümü tamam olur. Bununla bağlı Prezident İlham Əliyev 28 yanvar 2026-cı il tarixli sərəncam imzalamış, sənəddə Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardan biri kimi öz layiqli qiymətini almışdır.**

**Xaqani həqiqətən Azərbaycanda İntibah dövrü ədəbiyyatının ilk ən qüdrətli nümayəndəsi sayılır. O, Nizamiyə qədərki ədəbiyyatımıza çox güclü ictimai-siyasi məzmun, yüksək sənətkarlıq xüsusiyyətləri gətirmişdir. Qüdrətli söz ustadı Azərbaycan ədəbiyyatı tarixində ilk poemanın müəllifi olmuş, klassik ədəbiyyatımızda xüsusi yer tutan qəsidə janrını əlçatmaz bir yüksəkliyə qaldırmışdır.**

**Şairin əsərləri yüksək humanist məzmuna əsaslanır. Əsərlərində şər kəskinliklə inkar edilir, xeyir, gözəllik, insanı xoşbəxt edən dəyərlər tərənnüm olunur. Özünün bədii-humanist məziyyətləri ilə şairin əsərləri dünya ədəbiyyatının, xüsusilə İntibah dövründə yazıb-yaratmış sənətkarların yaradıcılıq irsi ilə eyni mənzilədə qərarlaşır. Təsadüfi deyil ki, Şərq ədəbiyyatının parlaq simaları olan Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Füzuli kimi dahilər Xaqani sözündən təsirlənmiş, ondan öyrənmiş, bəzi əsərlərinə cavablar yazmışlar.**



## "Nə qədər məskənim xoş bir məkandır"

Xaqani Şirvani əsərlərində dəfələrlə Şamaxıda, hörmətli bir ailədə doğulduğunu qeyd etmiş, bu torpağa - Şirvana sevgisini dilə gətirmişdir:

*Nə qədər məskənim bu xoş məkandır,*
*O Şərvan deyildir, bir Xeyrəvandır.*

Babası toxucu, atası dülgər idi. Şairin əmisi və əmisi oğlu isə həkim və alim kimi tanınırdılar. Şairin anası Rabiə müsəlmanlığı qəbul etmiş xristian qızı idi. O, sərkərdə ailəsində doğulmuşdu. Xaqaninin ana babası Toqat şəhərində möbid kimi tanınmışdı.

Şairin atası Əli Nəccar oğluna öz sənətini - dülgərliyi öyrətmək istəyirdi. Amma əmisi Kafiəddin Ömər ibn Osmanın körpəlikdən onu himayəsinə götürməsi gələcəyin məşhur şairinin taleyini dəyişmişdi. Əmisi ona Quranı, fəlsəfə və riyaziyyat elmlərini öyrətmişdi. Xaqani artıq 15-16 yaşlarından şeirlər yazmışdır. Əmisi ona "Həssanül-Əcəm" (Əcəm Həssanı) təxəllüsünü vermişdi.

25 yaşında o, Şirvanşahlar sarayının "Məlik üş-şüara"sı Əbül-üla Gəncəvinin dəvəti ilə saraya gəlir. Şair saraya gəlişini sevinclə qarşılayır, mədhiyyələr yazmağa, sarayda keçirilən şeir məclislərində fəal iştirak etməyə başlayır. Burada Əbül-üla ona "Xaqani" təxəllüsünü verir və bu təxəllüs Şirvanşah Mənuçöhrün fərmanı ilə təsdiqlənir.

Sarayda xidmət etdiyi dövrdə Xaqani Şirvanşah Mənuçöhrə, onun oğluna, Axsitana, Qızıl Arslana və digər hökmdarlara, əsilzadələrə çoxsaylı mədhiyyələr yazır. Bu mədhiyyələrin çoxu əhəmiyyətli hadisələrə həsr edilmişdi. Baqlani bəndinin tikilməsi, Axsitanın düşmənə qarşı qazandığı qələbə ilə bağlı mədhiyyələr buna misaldır.

## Mənəvi oyanış

Xaqani poeziyasında yeri gələndə sərtliyi, ciddi etirazları ilə başqa saray şairlərindən seçilirdi. Üstəlik, şairin özü də çılğın təbiətli insan idi. Onun şeirləri, davranışları çoxlarını təşvişə salırdı.

Sarayda keçirdiyi illərdə həyatında böyük bir mənəvi oyanış baş verdi. Saray həyatının onun fərdi azadlıqlarını necə məhdudlaşdırdığını anladı və bu mühit gənc şairi sıxmağa başladı. O özünü "qanadı qırılmış quş kimi dəmir qəfəsdə" hiss edir, Şırvanşahlar sarayından qaçmaq üçün müxtəlif yollar axtarırdı. Bu niyyətlə ziyarətə yollanır, Məkkəni, Mədinəni, Bağdadı və digər şəhərləri gəzib dolaşır. Yazdığı əsərlərində Xaqani güzarının düşdüyü yad ellərdə ona olan diqqət və ehtiramdan geniş söhbət açırdı. Səyahətinin nəticəsi kimi o, "Mədain xərabələri" adlı məşhur fəlsəfi qəsidəsini qələmə alır. Bu əsərində şair Sasani şahlarının xaraba qalmış saraylarının timsalında müasirlərini ibrət dərsi almağa çağırırdı. "Mədain xərabələri" əsəri dövrün sosial-siyasi şəraitini öyrənmək baxımından çox əhəmiyyətlidir. Burada o, şeirin tərbiyəvi gücünə inamı haqqında da çox maraqlı fikirlər irəli sürür, şairlik sənəti haqqında deyirdi: "Hər tərbiyəçi şairliyi bacarmaya bilər. Fəqət hər şair tərbiyə verməyi bacarmalıdır!"

Xaqani Şamaxıya qayıtdıqdan bir müddət sonra əmisi Kafiəddin Ömər 1151-ci ildə vəfat edir. 1152-ci ildə şair bir kəndli qızı ilə evlənir və onların Əbdülməcid və Rəşid adlı iki oğulları, bir neçə qızları dünyaya gəlir. Bu dövrdə şair müəyyən müddət Dərbənd və Gəncədə bir növ sürgün həyatı yaşayır. Orada özünə çoxlu dostlar qazanır, 1159-cu ildə Gəncədə olarkən qızdırma xəstəliyinə tutulur və Gəncəli Şəmsəddin Təbib adlı həkim onu müalicə edir. Tədqiqatçıların ehtimallarına görə, Xaqani Gəncədə yaşayarkən, onda hələ 18-19 yaşlarında olan Nizami Gəncəvi ilə də görüşmüş, aralarında ünsiyyət qurulmuşdu.

Klassik Şərq poeziyasının müxtəlif janrlarında mükəmməl əsərlər yaradan Xaqani Şirvaninin adı, şeirləri artıq Yaxın və Orta Şərq ölkələrində məşhur idi. Xüsusən Yaxın Şərq ədəbiyyatında epik poeziyanın ilkin mühüm nümunəsi sayılan "Töhfət ül-İraqeyn" adlı məsnəvisi ilə o, sənətkarlığının zirvəsinə çatmışdı. Xaqani bu əsərini 1157-ci ildə yazmış, burada səfərlərini, ayrı-ayrı xalqların həyatından topladığı təəssüratları qələmə almışdı. Məsnəvinin xüsusilə "Düşmənləri tənqid", "Günəşə xitab", "Qızıla məzəmmət" kimi bölmələri böyük maraq doğurur. Şair burada saflığın, işığın, hərarətin və ucalığın simvolu olan Günəşi dostu kimi qəbul edir, ondan yardım diləyir. "Töhfət-ül-İraqeyn" əsərinin əsas qəhrəmanı şairin özüdür, poema boyunca o düşünür, nələrəsə sevinir, nələrləsə qəzəblənir, nələrləsə fəxr edir.

## Dünyaya sığmayan hikmət

Xaqani Şirvaninin çılğın təbiəti, etiraz ruhu qədər kamil sənətkarlığı da çoxlarında narahatlıq yaradırdı. O, Şamaxıda yaşayarkən saray şairlərinin qəzəbinə tuş gəlir. 1170-ci ildə həbs edilərək Şabran qalasına göndərilir, 7 ay davam edən həbsindən sonra azad edilir. Ümumən şair 2 dəfə zindana düşmüşdü. Həbsdə keçirdiyi günləri "Həbsiyyə" adlanan məşhur şeirlərində ifadə etmişdi.

Doğulduğu torpaqlarda şairin həyatı ağır keçirdi. Həyatının ağrı-acılarını bu misralarında belə dilə gətirmişdir:

*Çox zəhmət çəkdim mən arzu yolunda*
*Taleyim üzümə gülmədi bir an*
*Dünyaya sığmayan hikmətim vardı*
*Ona dar gəlirdi hər iki cahan*
*Mənə verilənlər olmadı layiq*
*Layiq olanı da vermədi dövran*

Şamaxıda yaşayarkən onun 20 yaşlı oğlu, qızı və həyat yoldaşı bir-birinin ardınca vəfat edir. Daha burada yaşamağın mümkün olmadığını görən şair 1173-cü ildə ailəsinin qalan üzvləri ilə birgə Şirvanı tərk edib Təbrizə gəlir. 1176-cı ildə ikinci dəfə Kəbə ziyarətində olur, oradan Təbrizə qayıdıb burada daimi məskunlaşır, ömrünün sonuna qədər Təbrizdə yaşayır. Şirvanşah hökmdarı Axsitan, Atabəylər hökmdarı Qızıl Arslan və başqaları onu saraylarına dəvət etsələr də, Xaqani bu dəvətlərin heç birini qəbul etmir, müxtəlif bəhanələrlə saraya getməkdən boyun qaçırır. Saraydan üz döndərən şair xalqa arxalanaraq, özünü Xaqani deyil, Xəlqani adlandırır:

*İstəmirəm adımı çağırsınlar Xaqani,*
*Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani...*

Şair dərvişi sultandan daha ləyaqətli sayır, qəlbin saflığını, könül toxluğunu, dürüstlüyü, təmiz eşq və məhəbbəti tərənnüm edir.

O, 1199-cu ildə dünyadan köçür, Təbriz şəhəri yaxınlığındakı Surxab qəbiristanında dəfn olunur. Şairin məzarı bu gün Təbrizin məşhur Məqbərətüş-Şüəra (Şairlər məqbərəsi) adlanan tarixi məkanında yerləşir.

Maraqlı bir faktı da qeyd edək ki, Xaqani vəfat etdikdən sonra Nizami Gəncəvi ona mərsiyə yazmışdı və bu mərsiyədən bir beyt günümüzə qədər gəlib çatmışdır:

*Hey deyirdim ki, mənə mərsiyə Xaqani yazar,*
*Heyif, Xaqaniyə mən mərsiyə yazdım axır.*

## Şərq ədəbiyyatında yeni hadisə

Xaqani Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdəndir. Bir-birindən gözəl qəzəl və rübailəri ilə o, Azərbaycan poeziyasında zəngin ənənələr yaradıb. Xaqani Şirvani yaradıcılığı üçün mürəkkəb və orijinal bədii ifadə tərzi xarakterikdir. Azərbaycan klassikləri arasında, demək olar, yeganə şairdir ki, əruz vəzninin bütün bəhrlərində şeir yazıb.

Xaqani Şirvaninin zəngin poetik irsi 17 min beytlik lirik şeirlər divanından, "Töhfətül-İraqeyn" poemasından, epistolyar nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Amma bütün bunlar da Xaqani irsinin hamısı deyil. Özünün də dönə-dönə vurğuladığı kimi, şairin yaradıcılığı bütün Şərq ədəbiyyatı üçün yeni hadisə idi.

Yenilikçilik, yüksək humanizm böyük sənətkar olan Xaqaninin yaradıcılığının əsasını təşkil edir. Misralarının birindən gələn bu fikir onun əbədi həyat amalı idi: "Uşaqlıqdan adətim bu olmuşdur ki, inciyim, ancaq incitməyim". Buna rəğmən şair şərə qarşı da sərt mübariz idi. O, həmişə insanların haqlarının, həqiqətin, ədalətin tərəfini tuturdu.

Dünyagörüşü etibarilə Xaqani Şirvani ömrünün müəyyən bir dövründə Ərəstü- İbn Sina fəlsəfəsinə rəğbət bəsləmiş, hikməti-məşşanini qəbul etmiş, lakin sonradan bu düşüncədən uzaqlaşaraq əxilik (islamda sufi təriqətlərindən biridir) mövqeyinə keçmişdir. Onun yaradıcılığındakı humanizm, yunan fəlsəfəsinə tənqidi münasibəti də məhz əxilik dünyagörüşündən irəli gəlirdi. O, sufizmə, məlamiliyə, qələndəriyyəyə rəğbət göstərirdi.

## Fəlsəfi qəsidənin banisi

Tədqiqatçılar Xaqani Şirvanini ədəbiyyatımızda fəlsəfi qəsidənin banisi, ilk və ən güclü məsnəvilərin, incə ruhlu qəzəllərin və müdrik rübailərin, həmçinin mükəmməl mənzum səyahətnamənin yaradıcısı kimi yüksək qiymətləndirirlər.

Əsərlərinin tədqiqi onun dövrünün əsas elmlərinə necə dərindən bələd olduğunu göstərir. Şair hikmət, nücum, musiqi və s. kimi elmlərə vaqif idi. Əsərlərində bu elmlərə çoxlu istinadlar görürük. Tarixi də yaxşı bilirdi. Qəsidələrindən birində müxtəlif elmləri bilməyi ilə fəxr edərək yazırdı: "O hansı elmdir ki, mən onu bilmirəm? - məni sınamaq istəyirsən, əsərlərimə diqqət et." Bu fikri, ərəb dilində yazdığı bir əsərində də təkrarlayaraq belə deyir: "Mən elmlə şərafətlənib, onun sayəsində şöhrət tapıram".

Xaqani klassik ədəbiyyatın bir çox janrında kamil əsərlər yaratmışdır. Bununla belə onun yaradıcılığında əsas yer tutan janr məhz qəsidə janrıdır. Yaxın və Orta Şərqin İntibah dövrü ədəbiyyatında bu janrın ən görkəmli nümayəndəsi istisnasız olaraq məhz Xaqani sayılır. Firdovsi və Nizaminin poemada, Hafiz və Füzulinin qəzəldə, Ömər Xəyyamın rübaidə nümayiş etdirdiyi misilsiz ustalığı Xaqani də qəsidə janrında eyni dərəcədə nümayiş etdirmişdir. Onun qəsidələri dərin mənası, çoxcəhətli məzmunu, yüksək sənətkarlıq keyfiyyətləri ilə seçilir. Şairin qəsidələri üçün seçdiyi mövzular, onların yazılma məqsədləri, həcm və səviyyələri də fərqlidir.

Şair xüsusilə "Mədain xərabələri", "Qəsideyi-şiniyyə" kimi qəsidələri ilə hər cəhətdən söz mülkünün sultanı zirvəsinə çatır, ustadlıq mənziləsinə yüksəlir:

*Görün Xaqaniyə hümmət necə imkan yaratmış ki,*
*Bu gün yüz fəlsəfə ustadını saymaz da Xaqani.*

O, "Qəsideyi-şiniyyə" əsərini qafiyəli misraları "şin" hərfi ilə bitdiyinə görə məhz bu cür adlandırmışdır. Qəsidədə Xaqani kamil insan problemi və onun həlli yolunu göstərir, eləcə də insan və dünya münasibətlərinə aydınlıq gətirir. Buna şair ona görə müvəffəq ola bilir ki, o özü dərin bilikləri, zəngin həyat təcrübəsi, nəfsi üzərində qələbəsi ilə kamillik məqamına çatmışdı.

"Qəsideyi-şiniyyə" məzmun və ideyaca artıq oyanmış, haqqın və ədalətin nə olduğunu bilən, dünyadan üstün mənəvi ucalığa və kamilliyə çatmış, "peyğəmbəri tanıyan və Tanrını axtaran" bir həqiqət yolçusunun düçüncə, tövsiyə və qənaətidir.

*O "əbcəd" ki mənə ustad təlim etdi təcridi,*
*Saralmış çöhrəmə yazdı qızıl xətlə gözüm qanı.*
*O gün ki sirri yoxluqdan ibarət əbcədi bildim,*
*Unutdum varlığa bağlı olan hər bir müəmmanı.*

Ədəbiyyatımızda Xaqani ənənələrini davam etdirən ən böyük şairlərdən biri məhz Mirzə Ələkbər Sabirdir. Sabir öz şeirlərində Nizami ənənələrini qorumaqla yanaşı, Xaqaninin üsyankar və mübariz ruhunu da yaşatmağa çalışmış, onun əsərləri və həyatı ilə yaxından maraqlandığını bildirmişdir.

Xaqani əsərlərini fars və ərəb dillərində yazsa da, şeirə gətirdiyi bir sıra yeniliklərinə və ədəbi-bədii xüsusiyyətlərinə görə büsbütün Azərbaycan şairidir. Şairin bədii irsi Azərbaycanda, İranda, Rusiyada, Hindistanda, Pakistanda, bir çox Qərbi Avropa ölkəsində geniş tədqiq olunub və bu gün də tədqiqatçıların maraq dairəsindədir. Xaqaninin poetik əsərlərinin müəyyən hissəsini Azərbaycan dilinə Məmməd Rahim, Əliağa Vahid, Məmmədmübariz Əlizadə tərcümə ediblər.

Əfzələddin Xaqani Şirvani xalqımızın və bəşəriyyətin böyük bir dəyəridir. Bu dəyər daim uca tutulmalı, gələcək nəsillərə düzgün təqdim olunmalıdır. Belə şəxsiyyətlərimizi uca tutduqca xalq olaraq əzəmətimiz daha aydın görünəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## QƏZƏLLƏR

❖ ❖ ❖

Ey Xaqani, bu dünyada hər zaman,
Anan vermiş zəhmətilə sənə can.

Su, çörəyin qıt olsa da atmadın, -
Yurdun oldu bu əzablı, dar Şirvan.

Heç bir kəsə sən olmadın tüfeyli,
Kömək aldın Allahdan və anandan.

Sən oturdun kölgə kimi ananın
Cəhrəsinin kölgəsində anbaan.

Ey ağ qartal! Nə vaxtadək olacaq
Ana yurdu vücuduna aşiyan?

Nə vaxtadək, İsa kimi atasız, -
Ana ilə tanısınlar səni? Qan!

Bir dəfə də Xzır kimi yoxa çıx,
Bəsdir oldun ananla həmxaniman!

Sən qiymətli bir dürrsən, nədəndir
Oldun ana astanasından pünhan?

Sən ağıllı övladsansa dilə gəl,
Ana kimi özünü danla bir an.

Hər nə etsən ana haqqın unutma,
Bil, anandır sənə edər can qurban.

Bu ananın xatirinə, düşməndən
Gələn dərdə dözüb, sən ol mehriban.

Qorx o gündən, bir gün səni tək qoyub,
Əbədilik anan köçər dünyadan.

❖ ❖ ❖

Ey aydan, pəridən gözəl nazənin,
Məcnuna dönürəm eşqindən sənin.
Yaraşmaz zülm etmək nazlı mələyə,
Gəl mənə lütf eylə, ey nazlı gəlin.

Nə gözəl gecədir, bəs vəslin hanı?
Səni bax gözləyir dərdli Xaqani.
Gəl sənə söyləyim bir-bir sirrimi,
Gəlməsən yandırram bütün cahanı.

Xaqani öpdükcə şirin ləbindən,
Hərarət içində qızışır bədən.
Yəqin ki, dodağın alovludur, yar,
Yoxsa bu hərarət haradan, nədən?

# Ortaq türk əlifbasının yaradılması I Türkoloji Qurultayın ideyalarının reallaşmasının göstəricisidir

**1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının milli özünüdərk tarixində fundamental mərhələlərdən biri kimi dəyərləndirilir. Qurultayda səsləndirilmiş ideyalar türk xalqlarının dil birliyinin təmin olunması, mədəni inteqrasiyanın gücləndirilməsi və mənəvi həmrəyliyin bərpasına yönəlib.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri I Türkoloji Qurultayın 100 illiyinə həsr olunan beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycanda səfərdə olan Atatürk Kültür, Dil, Tarix Yüksək Qurumunun prezidenti professor Dərya Örs deyib.

Professor türk dünyası tarixində silinməz iz qoymuş qurultayda sovet məkanında yaşayan türk xalqlarının nümayəndələri ilə yanaşı, xarici ölkələrdən gələn alimlər də daxil olmaqla ümumilikdə 131 nəfərin iştirak etdiyini vurğulayıb: "Doqquz gün davam edən toplantıda türklər arasında ilk dəfə ortaq milli kimlik anlayışı, əlifba və orfoqrafiya məsələləri sistemli şəkildə müzakirə olunub. Qurultayın əsas gündəm mövzularından biri yeni əlifbaya keçid, xüsusilə latın qrafikalı ortaq türk əlifbasının qəbul edilməsi məsələsi olub. Bu ideyanın praktik nəticəsi kimi, 1928-ci il noyabrın 3-də Türkiyə ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya keçib".

Türkiyəli professor qeyd edib ki, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının təşəbbüsü ilə yaradılan Türk Dünyası Ortaq Əlifba Komissiyası tərəfindən 34 hərfdən ibarət latın qrafikalı ortaq türk əlifbası qəbul edilib: "Bu addım, əslində, I Türkoloji Qurultayda irəli sürülmüş ideyaların müasir dövrdə reallaşmasının göstəricisidir. 100 il sonra I Türkoloji Qurultayın keçirildiyi tarixi məkanda - Bakıda dünyanın müxtəlif ölkələrindən türk xalqlarının nümayəndələrinin və türkoloqların bir araya gəlməsi xüsusi rəmzi məna daşıyır. Türk dövlətləri bundan sonra da gələcək yol xəritəsini birlikdə müəyyən edəcək və bu istiqamətdə inamla irəliləməyə davam edəcək", - deyə professor Dərya Örs bildirib.

# COVID və qripə qarşı birgə peyvənd təsdiq olunub

**Pandemiyadan sonra dünya səhiyyə sistemi təkcə virusun özünü deyil, onun uzunmüddətli təsirlərini də daha dərindən anlamağa başlayıb. COVID-19 artıq sadəcə kəskin respirator infeksiya kimi qiymətləndirilmir. O, immun sistemindən başlayaraq böyrəklərə, ürəyə və ağciyərlərə qədər bir çox orqana təsir göstərən kompleks xəstəlik kimi araşdırılır. Bu fonda həm qoruyucu tədbirlər, həm də xəstəlikdən sonrakı reabilitasiya üsulları elmi gündəmin əsas mövzularına çevrilib.**



Son qərarlar və araşdırmalar göstərir ki, COVID-19 ilə mübarizə yeni mərhələyə qədəm qoyur. Bu istiqamətdə mühüm addımlardan biri Avropa Dərman Agentliyi tərəfindən atılıb. Qurum ABŞ-nin biotexnologiya şirkəti "Moderna" tərəfindən hazırlanmış COVID-19 və qripə qarşı birləşdirilmiş peyvəndin Avropada satışını təsdiqləyib. Bu qərar səhiyyə tarixində yeni mərhələ hesab olunur, çünki söhbət Avropada təsdiqlənmiş ilk mRNT əsaslı kombinasiya peyvəndindən gedir.

Yeni peyvənd həm koronavirus, həm də mövsümi qrip virusuna qarşı eyni vaxtda immun cavab formalaşdırmaq üçün hazırlanıb. Təsdiq 50 yaş və yuxarı şəxsləri əhatə edir. Klinik tədqiqatların nəticələrinə əsasən, kombinasiyalı peyvənd qəbul edən şəxslərdə yaranan immun reaksiya COVID-19 və qrip peyvəndlərini ayrıca qəbul edənlərdə müşahidə olunan səviyyə ilə müqayisəolunandır. Bu isə o deməkdir ki, effektivlik baxımından iki ayrı vaksinlə eyni nəticə əldə olunur.

Mütəxəssislər hesab edirlər ki, belə birləşdirilmiş peyvəndlər xüsusilə risk qrupuna daxil olan yaşlılar üçün mühüm üstünlüklər yaradır. Bu halda həm vaxt itkisi azalır, həm də immunizasiya prosesinin əhatəliliyi artır. Bununla belə, peyvəndin Avropa bazarında geniş tətbiqinə başlamazdan əvvəl Avropa İttifaqı Komissiyasının yekun təsdiqi də tələb olunur.

COVID-19-la bağlı aparılan tədqiqatlar göstərir ki, virusun təsiri yalnız ağciyərlərlə məhdudlaşmır. ABŞ-də üç milyondan çox insanın məlumatlarının təhlil olunduğu genişmiqyaslı araşdırma olduqca narahatedici nəticələr ortaya qoyub. Məlum olub ki, koronavirus keçirmiş şəxslərdə böyrək zədələnməsi riski qriplə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. Statistik göstəricilərə əsasən, COVID-19 keçirmiş insanlarda kəskin böyrək zədələnməsi riski 2,3 dəfə, xroniki böyrək xəstəliyi riski 1,4 dəfə, böyrək çatışmazlığının inkişaf ehtimalı isə təxminən 4,7 dəfə çox olub. Araşdırmanın diqqətçəkən tərəfi ondan ibarətdir ki, artıq böyrək xəstəliyi diaqnozu qoyulmuş şəxslər təhlilə daxil edilməyib. Bu yanaşma infeksiyadan sonra yaranan yeni halların daha dəqiq qiymətləndirilməsinə imkan verib.

Müşahidə müddəti orta hesabla ilkin xəstəlikdən sonra təxminən bir il davam edib. Qripin böyrəklərə təsiri əsasən qısamüddətli və nisbətən yüngül xarakter daşıdığı halda, COVID-19-un həm kəskin, həm də uzunmüddətli orqan zədələnməsi riski yaratdığı müəyyən edilib. Alimlər bunu virusun hüceyrələrə daxil olmaq üçün istifadə etdiyi reseptorların böyrək toxumalarında da mövcud olması ilə izah edirlər.

Xüsusilə diabet və hipertoniyadan əziyyət çəkən xəstələr üçün əvvəlki COVID-19 infeksiyası əlavə risk faktoru kimi qiymətləndirilməlidir. Həkimlər bu kateqoriyaya daxil olan şəxslərdə böyrək funksiyasının daha tez-tez monitorinqini tövsiyə edirlər. Erkən mərhələdə aşkarlanan dəyişikliklər ciddi fəsadların qarşısını almağa kömək edə bilər.

Pandemiyanın digər mühüm nəticələrindən biri də ağciyər toxumasının zədələnməsi və uzunmüddətli tənəffüs problemləridir. Bu istiqamətdə Rusiya alimləri yeni və perspektivli metod hazırlayıblar. Rusiya Elmlər Akademiyası nəzdində fəaliyyət göstərən Tomsk Milli Tədqiqat Tibb Mərkəzinin E.D.Qoldberq adına Farmakologiya və Regenerativ Tibb İnstitutunun tədqiqatçıları ağciyərlərin ventilyasiya və diffuziya ehtiyatlarını qiymətləndirmək və bərpa etmək üçün yeni metod təqdim ediblər.

Ağciyərlərin funksional vəziyyəti iki əsas göstərici ilə qiymətləndirilir: ventilyasiya və diffuziya qabiliyyəti. Ventilyasiya ehtiyatı ağciyərlərin normal nəfəs həcmindən əlavə qəbul edə biləcəyi hava miqdarını göstərir. Bu göstərici orqanizmin fiziki yükə və stresə uyğunlaşma qabiliyyətini əks etdirir. Diffuziya qabiliyyəti isə inhalyasiya olunan havadan oksigenin qana ötürülməsi və karbon qazının xaric edilməsi prosesinin effektivliyini müəyyən edir.

Yeni metodun əsasını ksenon-oksigen qarışığının inhalyasiyası təşkil edir. Tədqiqat çərçivəsində əvvəlcə xəstələrdə spirometriya aparılır. Spirometriya tənəffüs həcmlərini və tezliyini ölçməyə imkan verən funksional diaqnostik üsuldur. Daha sonra ağciyərlərin diffuziya qabiliyyətini qiymətləndirmək üçün qızıl standart hesab olunan DLCO testi həyata keçirilir. Bu test alveollardan qan dövranına oksigen daşınmasının səmərəliliyini ölçür.

Prosedur zamanı xəstə üç dəqiqə ərzində 30 faiz ksenon və 70 faiz oksigen qarışığını nəfəs alır. Bir saat sonra testlər təkrar olunur və əldə edilən göstəricilər müqayisə edilir. Xüsusilə dərin nəfəsvermədən sonra ağciyərlərdə qalan hava miqdarı ilə diffuziya qabiliyyəti arasındakı nisbət hesablanır. Bu nisbət ağciyər ehtiyatının səviyyəsini müəyyən etməyə imkan verir.

Mütəxəssislər bildirirlər ki, metod həm diaqnostik baxımdan yüksək dəqiqliyə malikdir, həm də praktik tətbiq üçün əlçatandır. Artıq bu yanaşma klinik praktikada istifadə olunur və koronavirus infeksiyasından sağalan xəstələrin reabilitasiyasında effektiv nəticələr göstərir.

COVID-19 pandemiyası səhiyyə sisteminə iki əsas dərs verdi. Birincisi, peyvəndin hələ də ən güclü qoruyucu vasitə olması, ikincisi isə infeksiyanın uzunmüddətli təsirlərinin vaxtında aşkarlanması və düzgün reabilitasiyasının həyat keyfiyyətini qorumasıdır. Birləşdirilmiş peyvəndlərin tətbiqi isə immunizasiyanı daha sistemli və rahat edə, eyni zamanda böyrək və ağciyər funksiyalarının diqqətli monitorinqi post-COVID sindromunun ağır nəticələrinin qarşısını almaqda mühüm rol oynaya bilər.

Elmi tədqiqatlar davam etdikcə aydın olur ki, COVID-19, sadəcə, keçmiş bir pandemiya deyil, uzunmüddətli sağlamlıq çağırışıdır. Müasir tibbin qarşısında duran əsas vəzifə isə həm xəstəlikdən qorunma, həm erkən diaqnostika, həm də effektiv reabilitasiya mexanizmlərini paralel şəkildə inkişaf etdirməkdir. Bu istiqamətdə atılan hər yeni addım - istər mRNT əsaslı kombinasiya peyvənd, istər böyrək risklərinin erkən aşkarlanması, istərsə də ağciyər reabilitasiyasında innovativ metodlar pandemiyanın görünməyən izlərinin silinməsinə doğru atılmış mühüm addımdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
"Dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər"
Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycan Respublikasına rəsmi səfərə gəlib
Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında
Azərbaycan Respublikası Prezidentinin FƏRMANI
"Neytrallıq" pərdəsi altında riyakarlıq
Ermənı məkrinin şantajı
Ermənistan seçim qarşısındadır
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## OXUCULARIN NƏZƏRİNƏ

Hörmətli oxucular!

"Azərbaycan Nəşriyyatı"nda aparılacaq əsaslı təmir işləri ilə bağlı "Azərbaycan" qəzetinin redaksiyası aşağıda göstərilən ünvana köçmüşdür:

**Mətbuat prospekti, 23L**
**"Azərbaycan Nəşriyyatı" MMC, 4-cü mərtəbə**

## İdman

*Azərbaycan güləşçisi:*

### "Reytinq turnirində ilk medalımı qazandığım üçün qürurluyam"



"Mənə dua edən və dəstək olan hər kəsə minnətdaram. Yarış yüksək səviyyədə və güclü rəqabət şəraitində keçdi. İddialı rəqiblər çox idi. Bu, mənim üçün ən önəmli yarışlardan biri idi".

AZƏRTAC xəbər verir ki, bu sözləri Albaniyanın paytaxtı Tiranada keçirilən "Muhamet Malo" turnirində çempion olan Azərbaycanın yunan-Roma güləşçisi Ziya Babaşov federasiyasının rəsmi saytına açıqlamasında deyib.

63 kiloqram çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançı reytinq xarakterli yarışdakı çıxışını şərh edib: "Finala qədər yaxşı görüşlər keçirdim. Finalda komanda yoldaşımla qarşılaşdım. Biz Sakit Quliyevlə dost və komanda yoldaşı olsaq da, xalça üzərində hər birimiz qələbə uğrunda əlimizdən gələni edirik. Ümid edirəm ki, finala layiq bir görüş nümayiş etdirə bildik".

İdmançının sözlərinə görə, bu qələbənin arxasında çox insan - məşqçilər korpusu və komanda dayanır: "Bu uğur onların da əməyinin nəticəsidir. Reytinq turnirində ilk medalımdır. Buna görə çox qürurluyam. İnanıram ki, uğurlarımız davamlı olacaq".

### "Sabah"ın polşalı müdafiəçisi: "Buraxdığımız ilk iki qolda "Qarabağ"ın bəxti gətirdi"

**"Yaxşı oyun oldu. Görüş qarşılıqlı hücumlar şəraitində və intensiv keçdi".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında "Sabah"ın polşalı müdafiəçisi Timoteuş Puxaç Misli Premyer Liqasının XXII turunda "Qarabağ"la 3:3 hesablı heç-heçə etdikləri oyun barədə danışarkən deyib. O, sözlərinə belə davam edib: "Düşünürəm ki, bu matçdan heç-heçə ilə ayrılmaq bizim üçün normal nəticədir. Oyuna yenidən baxmalıyam, amma hesab edirəm ki, həm bizim, həm də rəqibin kifayət qədər qol epizodları oldu".

Polşa millisinin sabiq üzvü buraxılan qollar barədə də danışıb: "Açığı, ilk iki qol bir qədər şansla bağlı idi. Qollardan biri rəqib oyunçuya dəyib qapıya daxil oldu. Digəri isə künc zərbəsindən sonra yarandı. Qapı önündə qarışıqlıq zamanı top tora daxil oldu. Rəqib bundan sonra üçüncü qolu da vurdu. Buna baxmayaraq, ümumilikdə azarkeşlər üçün baxımlı qarşılaşma alındı". 27 yaşlı futbolçu komandasının çıxışını da qiymətləndirib: "Oyunumuzda həm yaxşı, həm də çatışmayan məqamlar oldu. Rəqibdə də eyni vəziyyət müşahidə edilirdi. Nəticədə heç-heçə qeydə alındı. Bu nəticəni qəbul edirik və qarşıdakı matçlara fokuslanırıq".

Qeyd edək ki, "Sabah" 53 xalla turnir cədvəlinə başçılıq edir. Aktivində 46 xal olan "Qarabağ" ikinci pillədə qərarlaşıb.

***Bakı şəhəri, Xətai rayonu, S.Mehmandarov, 46 ünvanında yaşayan Sərxan Rəşad oğlu Kazımova məxsus motosikletin 99-x-645 dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev və səhmdar cəmiyyətin kollektivi uzun illər "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti sistemində məsul vəzifələrdə çalışmış

**XALİD MƏMMƏDSALEH OĞLU HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, universitetin Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri professor Səbinə Hacıyevaya atası

**XALİD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan şəhərindən Hüseyn Məşdi oğlu Əliyev yaxın dostu "Naxçıvan Enerji" MMC texniki şöbəsinin rəisi Miryunis Mirəziz oğlu Seyidova əzizi

**ASLAN QƏZƏNFƏR OĞLU HACIYEVİN**

Bakı şəhərində vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əli, Rafiq və Arif Hüseynovlar, Murad Muradov, Ələddin və Sabir Hacıyevlər, Əlövsət Əliyev, İlham İbrahimov, Hidayət və Mircəfər İsmayılovlar, Samiq Vəliyev və İlham Həsənov istefada olan polis polkovniki Azər Muradova əzizi

**PƏRVİZ TƏBRİZ OĞLU MURADOVUN**

İsmayıllı rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə respublikanın Əməkdar memarı, Memarlar İttifaqı İdarə Heyətinin üzvü professor Səbinə Hacıyevaya atası

**XALİD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqı İdarə Heyətinin üzvləri respublikanın Əməkdar memarı, Memarlar İttifaqı İdarə Heyətinin üzvü professor Səbinə Hacıyevaya atası

**XALİD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3317
Sifariş 314

Qiyməti 60 qəpik